HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 04 (744) ■ 28 yanvar 2015 www.vergiler.az Qiymәti: 40 qәp.

# Azərbaycan inkişaf göstəricilərinə görə dünyanın aparıcı dövlətləri sırasındadır

Yanvarın 27-də «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının 1-ci ilinin yekunlarına həsr olunmuş konfrans keçirilib. Prezident İlham Əliyev tədbirdə iştirak edib.

Konfransda çıxış edən dövlətimizin başçısı bildirib ki, regionların sosial-iqtisadi inkişafına dair üçüncü dövlət proqramının qəbulundan 1 il keçir. Ötən dövrdə dünyada siyasi, iqtisadi və maliyyə böhranının yeni mərhələsinin başlanmasına baxmayaraq, Azərbaycanda sabitlik və inkişaf hökm sürüb. Son 11 ildə ölkədə 1 milyon 360 min yeni iş yeri açılıb, Onlardan 1 milyonu daimidir. Həyata keçirilən tədbirlər nəticəsində işsizlik və yoxsulluq indi 5 faiz səviyyəsindədir. Respublikada sosial sahənin də inkişaf etdiyini qeyd edən Prezident İlham Əliyev bildirib ki, indi ölkədə orta aylıq əməkhaqqı 565 dollar, orta pensiya 221 dollardır. Bu illərdə 2900 məktəb, 560 tibb ocağı tikilib və təmir olunub. Regionlarda 41 olimpiya-idman, o cümlədən 30 gənclər mərkəzi yaradılıb. Son 11 ildə məcburi köçkünlər üçün 84 qəsəbə salınıb, fərdi yaşayış evləri tikilib, 210 min məcburi köçkün yeni evlərə köçürülüb. Bu məqsədlər üçün 2,6 milyard dollar vəsait xərclənib. Bu müddət ərzində ümumi gücü 2400 meqavat olan 23 elektrik stansiyası tikilib, ölkədə 64 min müəssisə yaradılıb. İndi bütün şəhərlərdə qazlaşma 100 faiz səviyyəsindədir və hazırda bu işlər kənd yerlərində davam etdirilir. Ötən dövrdə 10 min kilometr yol çəkilib, 340 körpü-tunel tikilib, bölgələrdə 4-ü beynəlxalq olmaqla 6 aeroport inşa olunub. İçməli su layihələri də icra edilib, nəhəng meliorasiya tədbirləri həyata keçirilib.



Qeyd olunub ki, dünyanın aparıcı reytinq agentlikləri ölkəmizin reytinq göstəricilərini artırıb, Davos İqtisadi Forumu Azərbaycanı inkişaf göstəricilərinə görə dünya üzrə 38-ci yerdə qərarlaşdırıb. Prezident İlham Əliyev bildirib ki, regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramı da uğurla icra olunacaq və nəticədə, əvvəllər olduğu kimi, bütün ölkə üzrə investisiya proqramlarının icrası, sahibkarlara verilən dəstəyin, quruculuq-abadlıq işlərinin davam etdirilməsi və digər məsələlərin həlli müntəzəm xarakter daşıyacaq.

Dövlətimizin başçısı onu da vurğulayıb ki, hazırda dünyanın inkişaf etmiş ölkələrinin xarici yardımlardan bəhrələndiyi bir vaxtda belə, Azərbaycan bütün uğurlara öz imkanları hesabına, təkbaşına çatıb. İqtisadi gücümüz siyasi sahədə də öz sözümüzü deməyə, milli maraqlarımızı qorumağa imkan yaradır...

Sonra iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev, kənd təsərrüfatı naziri Heydər Əsədov, «Meliorasiya və su təsərrüfatı» ASC-nin sədri Əhməd Əhmədzadə, «Azərsu» ASC-nin sədri Qorxmaz Hüseynov son bir il ərzində görülən işlər barədə çıxış ediblər.

Mərasimdə yekun nitqi ilə çıxış edən Prezident İlham Əliyev bildirib ki, qarşıda duran bütün planların həyata keçirilməsi üçün makro-iqtisadi sabitliyin qorunub saxlanması zəruridir. Ötən il iqtisadiyyatın 3 faiz, qeyri-neft sektorunun 7 faiz artdığını deyən dövlət başçısı görülən işlər zamanı israfçılığa yol verilməməsinin vacibliyini vurğulayıb, investisiya proqramına ancaq prioritet məsələlərin salındığını qeyd edib. Cari ildə məktəblərin, səhiyyə ocaqlarının, uşaq bağçalarının tikintisinin, zəruri infrastruktur layihələrinin icrasının davam etdiriləcəyini, yeni iş yerlərinin yaradılması istiqamətində tədbirlər görüləcəyini diqqətə çatdıran qeyd edib ki, bununla yanaşı, qeyri-neft sektorunun inkişafı, sahibkarlığa dəstəyin göstərilməsi də prioritet sahələr sırasındadır.

Çıxışının sonunda Prezident İlham Əliyev hər bir rayonda sənaye zonalarının yaradılması, ölkədə istehsal olunan məhsulların xaricə çıxışının təmin edilməsi, dünyadakı qabaqcıl təcrübələrin Azərbaycanda tətbiqi, həmçinin istifadəsiz torpaqlara nəzarət mexanizminin gücləndirilməsi, torpaqların elektron uçotunun aparılması ilə bağlı tapşırıqlarını verib.

# Prezident İlham Əliyevin İsveçrəyə işgüzar səfəri

## Dövlətimizin başçısı Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 21-də İsveçrəyə işgüzar səfərə gəlib.

Dövlətimizin başçısı səfər zamanı Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç ilə görüşüb. Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. Azərbaycanın Avropanın enerji təminatında artan rolunun önəmi vurğulanıb, bu sahədə «Cənub» qaz dəhlizinin əhəmiyyəti qeyd edilib. Gələn ay Bakıda keçiriləcək «Cənub» qaz dəhlizinin nazirlər səviyyəsində birinci məşvərət şurasına dair məsələlər müzakirə edilib, əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev Davos Forumu çərçivəsində «Swiss Re Global Partnership» şirkətinin sədri Martin Parker, Rusiya Federasiyası «Sberbank»ın sədri German Qref, Niderlandın «Damen Shipyards Group» şirkətinin sədri Kommer Damen, İsveçrə Konfederasiyasının Prezidenti xanım Simonetta Sommaruqan, İsrail Dövlətinin sabiq Prezidenti Şimon Peres, «Soros Fondu»nun təsisçisi Corc Soros və Böyük Britaniyanın bp şirkətinin baş icraçı direktoru Robert Dadli ilə də görüşüb. Görüşlərdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib, iqtisadi sahədə səmərəli əlaqələrin olduğu və əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın mövcudluğu diqqətə çatdırılıb.

Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Dünya İqtisadi Forumu çərçivəsində keçirilən «Regionların transformasiyası: Avrasiya» mövzusunda sessiyada iştirak edib.Sessiyanın aparıcısı, iqtisadiyyat üzrə professor Viktor Halberştad iştirakçıları təqdim etdikdən sonra sözü dövlətimizin başçısına verib. Prezident İlham Əliyev bildirib ki, transformasiya bizim üçün siyasi sistemin transformasiyası idi, çünki müstəqillikdən əvvəl bizdə belə bir imkan yox idi. Həmçinin planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid olmalı idi: «23 illik müstəqillik dövrü açıq qapı siyasətini yürüdən, sərmayələri cəlb edən və bugünkü əsas çağırışları aradan qaldıran ölkənin əldə etdiyi nailiyyətləri baxımından çox maraqlı dövr hesab edilə bilər. İqtisadi cəhətdən Azərbaycan iqtisadiyyatının 85 faizini özəl sektor formalaşdırır. Eyni zamanda, iqtisadiyyatın şaxələndirilməsi siyasəti də uğurla həyata keçirilir. Neft qiymətlərindən asılılığımız get-gedə azalır. Beləliklə, iqtisadiyyatımızın böyük bir qismi qeyri-enerji sektoru tərəfindən təmin edilir. Həmçinin əsas beynəlxalq maliyyə təsisatlarının, xüsusən də Avropa Yenidənqurma və İnkişaf Bankı və digərlərinin yardımı ilə çox sayda böyük infrastruktur layihələrinin həyata keçirilməsi istiqamətində mühüm işlər görmüşük. İndi isə Azərbaycan artıq donor ölkəyə çevrilib. Biz artıq özümüz Beynəlxalq Maliyyə Korporasiyası və digər beynəlxalq maliyyə təsisatları vasitəsilə bəzi layihələri maliyyələşdiririk».




Azərbaycan Prezidenti qeyd edib ki, ölkəmiz böyük enerji resurslarına malikdir və bu sahədə regionda mühüm rol oynayır: «Bu yaxınlarda digər yeni nəhəng meqalayihəyə başlamışıq. Bu, «Cənub» qaz dəhlizi adlanır. Bu layihə vasitəsilə qaz Azərbaycandan Avropaya nəql ediləcək. Bu, ola bilsin ki, Avropanın ən iri infrastruktur layihələrindən biri olacaq. «Cənub» qaz dəhlizi layihəsi artıq həyata keçirilən layihədir. İqtisadiyyatın şaxələndirilməsi demək olar ki, hər bir ölkə, xüsusən də zəngin neft və qaz ehtiyatlarına malik olan ölkə üçün ən mühüm elementlərdən biridir. Bu məsələdə də biz müəyyən uğurdan danışa bilərik. Lakin gələcəkdə də görüləsi iş çoxdur. Çünki biz müstəqillikdən sonra nəinki mənfidən müsbətə doğru dəyişən, o cümlədən əfsuslar ki, vəziyyətin gərginləşdiyi, get-gedə daha çox münaqişə, hədələr, eləcə də terror hücumu hədələri yaranan regionda yaşayırıq. Əlbəttə ki, ölkə daxilində sabitlik onun hüdudlarından kənarda müəyyən dərəcədə proqnozlaşdırılan vəziyyət olduğu təqdirdə, tam təmin edilə bilər. Bu səbəbdən, enerji və daşıma layihələrimiz daha geniş beynəlxalq və regional əməkdaşlığa yönəlib ki, hər bir ölkə bundan bəhrələnsin. Fikrimcə, hökumətimizin apardığı siyasət hər kəsin - hasilatçı, tranzit və istehlakçı ölkələrin imkanlarımızdan bəhrələnməsinə yönəlib. Bu, bir növ Azərbaycanın nail olduğu vahid komanda işidir. Hazırda yerləşdiyimiz regionun imkanları heç vaxt indiki qədər geniş olmayıb. Lakin regionumuzun hüdudlarından kənarda vəziyyət dəyişir. Yeni çağırışlara gəldikdə, neftin qiymətinin aşağı düşməsi iqtisadiyyatımız üçün çağırışdır. Bununla belə, düşünürəm ki, hətta hər hansı mənfi bir hadisə baş verdikdə, biz müsbət məqamları tutmağa çalışmalıyıq. Bu, bizi daha qənaətcil olmağa, xərcləri azaltmağa səfərbər edəcək və neftin aşağı qiymətləri ilə yaşamağı öyrədəcək. Bu, resurslarımız tükənəndə bizim üçün çox faydalı olar».

Dövlətimizin başçısı çıxışında Azərbaycan-Ermənistan-Dağlıq Qarabağ münaqişəsinə də toxunub: «Biz 20 ildən artıqdır ki, Ermənistanın işğalından əziyyət çəkirik. İyirmi ildən çoxdur ki, aparılan danışıqlar heç bir nəticə verməyib. Fikrimcə, keçmiş sovet məkanındakı və ümumiyyətlə, dünyadakı bütün münaqişələrə eyni prizmadan baxılmalıdır, eyni yanaşma, eləcə də eyni beynəlxalq hüquq normaları tətbiq edilməlidir. Əgər hər hansı münaqişə həll olunmursa və ya dondurulursa, onda digər münaqişələrə fürsət yaranır. Burada ötən dəfə olduğum vaxtdan görürük ki, bir çox şeylər dəyişib. Biz hətta təsəvvür belə edə bilmədiyimiz yeni təhlükələri görürük və onlar artıq regional deyil, qlobal hədələrdir. Sabitliyin pozulması, ola bilsin, yerli və ya regional görünən problemlərin vaxtında həll edilməməsi nəticəsində Avropada baş vermiş dəhşətli hücumların şahidi olduq. Əlbəttə ki, bizim münaqişə, yəni, Azərbaycan ilə Ermənistan arasında olan münaqişə regional xarakter daşıyır, lakin həm coğrafiya, həm də metodologiya baxımından daha böyük təsirə malikdir. Əgər siz bu münaqişəni beynəlxalq hüquq əsasında həll etməsəniz, bu kimi halları dünyanın digər yerlərində də görməyə hazır olun. Həmçinin vacibdir ki, beynəlxalq hüquq normaları bəzi ölkələrin maraqlarına uyğun olaraq interpretasiya edilməli deyil. Onlar yazıldığı kimi interpretasiya edilməlidir. BMT-nin Nizamnaməsində, ATƏT-in və digər beynəlxalq təşkilatların sənədlərində beynəlxalq hüquq normalarının prioritet xarakterləri barədə çox aydın şəkildə təriflər verilib. Onların hamısına hörmətlə yanaşmaq lazımdır. Belə olan halda, biz ikili standartlardan sığortalana bilərik və daha vacibi isə regionumuzda yeni münaqişələrin yaranması riskini azaldacağıq».

Azərbaycan Prezidenti İlham Əliyev Davos İqtisadi Forumu çərçivəsində keçirilən «Dünya iqtisadi liderlərinin qeyri-formal toplantısı: Enerji geosiyasəti üzrə yeni qlobal kontekst» mövzusunda sessiyada iştirak edib. Yüksək səviyyəli rəsmi şəxslərin qatıldığı sessiyada dövlətimizin başçısı çıxış edərək Azərbaycanın energetika sahəsində qazandığı nailiyyətlərdən, enerji sektorunda əldə olunan gəlirlərin iqtisadiyyatın şaxələndirilməsinə uğurla yönəldilməsindən, ölkəmizin qlobal enerji layihələrində fəal iştirakından, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın önəmli rolundan, «Cənub» qaz dəhlizi layihəsinin əhəmiyyətindən danışıb.

Yanvarın 22-də Davosda «Bakı-2015» ilk Avropa Oyunlarının təqdimatı olub. Mərasimdə iştirak edən Prezident İlham Əliyev bildirib ki, Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qəbul edilmiş qərarın əsas səbəblərindən biri atletlərimizin nailiyyətləri ilə bağlı olsa da, digər səbəb Azərbaycanın sürətli inkişafı ilə əlaqəlidir: «Beləliklə, biz qonaqları və turistləri gözləyirik. İndi hazırlıq işinin son mərhələsindəyik. Əlbəttə ki, Oyunlar bizə onsuz da həyata keçirilməli layihələri daha qısa müddət ərzində reallaşdırmaq imkanını yaratdı. Müasir idman infrastrukturunun yaradılması sahəsində çoxlu işlər aparılıb. Hazırda biz Xəzər dənizinin sahilində Bakı İdman Şəhərciyini yaradırıq. Nəqliyyat infrastrukturumuzu yeniləşdiririk. Bu, əlbəttə, regionda ən yaxşı şəbəkələrdən biri olacaq. Bakıda yeni mehmanxanalar açılır. Eyni zamanda, Xəzərin sahilində uzunluğu 16 kilometr olan yeni gəzinti zonası yaradılır. Bu, qonaqlar, idmançılar və turistlər üçün gözəl məkan olacaq».

2 Audit və operativ nəzarət məsələləri müzakirə olunub

3 Ödənişlərin nağdsız qaydada həyata keçirilməsi üçün lazımi maddi-texniki baza yaradılıb

4 «Kənd təsərrüfatı ili»nin prioritetləri

5 2014-cü ilin makroiqtisadi göstəriciləri açıqlanıb

# Vətəndaş müraciətlərinə baxılması daim diqqət mərkəzindədir

2014-cü il ərzində vergi orqanlarına cəmi 103196 müraciət daxil olmuşdur ki, onlardan da 98,2%-i ərizə, 1,6%-i şikayət, 154-ü təklifdir. Müraciətlərin 33,5%-i kameral vergi yoxlamaları, 30,8%-i müxtəlif arayışların alınması, 14,9%-i səyyar vergi yoxlamaları, 5,6%-i vergi borcları, 1,1%-i operativ vergi nəzarəti, 0,3%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,1%-i korrupsiya hüquqpozmaları, 13,7%-i isə digər məsələlərlə bağlı olmuşdur. Ümumilikdə müraciətlərin 75,4%-i müsbət həll olunmuş, 14,9%-i üzrə müvafiq izahatlar verilmiş, 5,7%-i əsassız sayılmışdır.

Vergi orqanlarına daxil olmuş 1647 şikayətdən 441-i eyni, 186-sı təkrardır, yəni şikayətlərin faktiki sayı 1020 olmuşdur. Şikayətlərin 34%-i kameral vergi yoxlaması, 21,3%-i operativ vergi nəzarəti, 17,8%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 17%-i səyyar vergi yoxlamaları, 7%-i korrupsiya hüquqpozmaları, 2,9%-i isə digər sahələrlə əlaqəlidir. Baxılmış şikayətlərin 36,7%-i əsassız sayılmış, 36,6%-i üzrə müvafiq izahatlar verilmiş, 15,5%-i müsbət həll olunmuşdur.

İcra intizamına nəzarətin gücləndirilməsi nəticəsində icra müddəti gecikdirilən müraciətlərin sayı əvvəlki ilə nisbətən nəzərəçarpacaq dərəcədə azalaraq cəmi 87 və ya 0,08% təşkil etmiş, şikayətlər üzrə gecikdirilmə hallarına yol verilməmişdir.

2014-cü il ərzində Vergilər Nazirliyinin Aparatının müvafiq struktur bölmələrinin rəhbərləri və ya digər vəzifəli şəxsləri tərəfindən 1100 vətəndaş qəbul edilmiş, onlara mövcud qanunvericilik çərçivəsində müvafiq köməklik göstərilmiş və ya izahatlar verilmişdir.

2014-cü ildə vergilər naziri tərəfindən Mingəçevir, Sabirabad, Göyçay, Xaçmaz, Zaqatala, Salyan, Kürdəmir və Xırdalan şəhərlərində ümumilikdə 325 nəfər vətəndaş qəbul edilmişdir. Onların müraciətlərindən 61-i hesablanmış verginin (tətbiq edilmiş maliyyə sanksiyasının) ləğvinə və ya ümidsiz borcların silinməsinə köməklik göstərilməsi, 50-si işə qəbul (və ya bərpa) edilməsinə, yaxud iş yerinin dəyişdirilməsinə köməklik göstərilməsi, 31-i maddi yardım edilməsi, 25-i güzəştli şərtlərlə kredit alınmasına köməklik göstərilməsi, 21-i vergi qanunvericiliyi və inzibatçılığının izah olunması və ya onda müvafiq dəyişikliklərin edilməsi, 12-si vergi nəzarəti tədbirləri, 10-u sosial sığorta ödənişləri, 115-i isə digər məsələlərlə bağlı olmuşdur.

# Əsas hədəf vergi ödəyicilərinin məmnunluğudur

Vergilər Nazirliyi tərəfindən vergi ödəyicilərinin vergilər sahəsində maarifləndirilməsi, məlumatlandırılması, eyni zamanda cəmiyyətdə vergi mədəniyyətinin formalaşdırılması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir.

***Vergi ödəyicilərinin məlumatlandırılması***

Ötən il vergi ödəyicilərinə 124 adda xidmətlərin göstərilməsini müəyyən edən «Vergi ödəyicilərinə xidmətlərin vahid standartları»nın tətbiqinə başlanılmışdır. Fevral ayında vergi ödəyicilərinə xidmət strukturlarına Vergilər Nazirliyinin loqotipini əks etdirən 40 avtomobil ayrılmışdır.




Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş «Vergi partnyorluğu sazişinin forması» və «Vergi partnyorluğu sazişinin bağlanması Qaydaları», vergilər nazirinin əmri ilə təsdiq edilmiş «Vergi partnyorluğu sazişinin bağlanması üçün Ərizə»nin forması Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Əmək Məcəlləsinə edilmiş dəyişikliyə əsasən əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi ilə bağlı müvafiq bildirişin elektron informasiya sistemində qeydiyyata alınması barədə vergi ödəyicilərinə 90666 xəbərdarlıq məktubu göndərilmiş, nazirliyin internet səhifəsində əmək müqaviləsinin nümunəvi forması, mobil elektron imza - «Asan İmza» vasitəsilə əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması barədə təlimat yerləşdirilmişdir.

Əmək müqaviləsininin bağlanmasını təbliğ edən sosisal videoçarxlar hazırlanaraq «Facebook» sosial şəbəkəsində yayımlanmış, Bakı şəhərində və regionlarda yol kənarlarında müvafiq sosial reklamlar yerləşdirilmiş və bu proses davam etdirilir.

***İnternet səhifəmiz birinciliyi qoruyub saxlayır***

Ötən il Vergilər Nazirliyinin rəsmi internet səhifəsi (www.taxes.gov.az) yenidən inventarizasiya edilmiş, köhnə, aktual olmayan məlumatlar çıxarılmış, lazımi əlavə, düzəlişlər edilmişdir. Səhifəyə daxil olan istifadəçilərin axtardıqları məlumatları tez və rahat tapması üçün «Onlayn bələdçi» xidməti istifadəyə verilmişdir.

«Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarlığın maraqlarının müdafiəsi haqqında» Qanunun icrası ilə əlaqədar nazirliyin rəsmi internet səhifəsində vergi orqanları tərəfindən aparılan yoxlamaların reqlamentini, onların hüquqi əsasları barədə dolğun məlumatı əks etdirən «Vergi yoxlamaları: əsaslar və prosedurlar» bölməsi yaradılmış və həmin bölmədə müvafiq sənədlər, vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə bildiriş-məlumatlar yerləşdirilmişdir.

«Borclu vergi ödəyiciləri barədə məlumat» bölməsi yaradılmış, «Qanunvericilik» altbölməsi, «ASAN imza» bölməsi yenilənmiş və həmin bölmədə müvafiq sənədlər yerləşdirilmişdir.

Nazirliyin Facebook sosial şəbəkəsindəki səhifəsində «FACE vizit» layihəsi, eləcə də vergi ödəyicilərinin vergi qanunvericiliyi və inzibatçılığı barədə məlumatlandırılması məqsədilə «Onlayn müfəttiş» adlı layihə davam etdirilmişdir.

Multimedia Mərkəzi tərəfindən ictimai informasiya subyektlərinin rəsmi internet resurslarının monitorinqinin nəticələrinə görə Vergilər Nazirliyinin rəsmi internet səhifəsi ardıcıl olaraq 6 il birinci yerə layiq görülmüşdür.

***Xidmət mərkəzlərinin imkanları genişləndirilir***

Ötən il ərzində vergi ödəyicilərinə xidmət mərkəzlərində vergi ödəyicilərinin və vətəndaşlara müxtəlif növ vergi xidmətləri göstərilmişdir. Hazırda «Vergi ödəyicilərinə xidmətlərin vahid standartları» ilə müəyyən edilmiş xidmətlərin əksəriyyəti xidmət mərkəzləri tərəfindən həyata keçirilir.

Respublikada fəaliyyət göstərən bütün xidmət mərkəzlərinin funksional imkanlarının genişləndirilməsi, vergi ödəyicisinin məmnunluq səviyyəsinin artırılması məqsədilə mövcud avadanlıqların yenilənməsi, infrastukturun daha da təkmilləşdirilməsi məqsədilə işlər davam etdirilir.

Mərkəzlərin optimal sayda kadrlarla təmin edilməsi və əməkdaşların peşə hazırlığının yüksəldilməsi üçün distant təhsil formasında təlimlər təşkil olunmuşdur.

Ötən ilin noyabrında Bakıxanov qəsəbəsində Bakı Vergilər Departamentinin yeni Vergi ödəyicilərinə xidmət mərkəzi istifadəyə verilmişdir.

***«Vergi dostları» ilə əməkdaşlıq gücləndirilir***

Rayon vergilər şöbələrinin və vergi ödəyicilərinə xidmət mərkəzlərinin yerləşdiyi şəhər və rayon mərkəzlərinin əhatəsindən kənarda olan kənd və qəsəbələrdə vergi ödəyicilərinin maarifləndirilməsi məqsədilə «Vergi dostları» şəbəkəsi fəaliyyət göstərir. Vətəndaşlarda vergi mədəniyyətini formalaşdırmaq, bu sahəyə ictimaiyyətin geniş təbəqələrini cəlb etmək üçün respublikanın 53 rayonu üzrə 1541 nəfər müəllim bu şəbəkənin üzvüdür.

«Vergi dostları» şəbəkəsinin üzvləri ilə əməkdaşlığın gücləndirilməsi, onların fəaliyyət göstərdikləri kənd və qəsəbə əhalisi, o cümlədən vergi ödəyiciləri ilə təbliğat işlərinin hansı səviyyədə qurulmasını müəyyən etmək məqsədilə Vergilər Nazirliyi nümayəndələrinin iştirakı ilə «dəyirmi masa»lar keçirilmiş, görülən işlər, ortaya çıxan problemlər və nəticələr müzakirə edilmişdir.

***Şagirdlər və tələbələr maarifləndirilir***

Hazırda ölkədə 54 ümumtəhsil məktəbində metodiki kabinetlər və 2 peşə ixtisas liseyində vergi tədris otağı fəaliyyət göstərir.

Ötən ilin aprel ayında Azərbaycan Dövlət İqtisad Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş 8-ci olimpiadada Bakı və respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərən 13 ali məktəbin 260-dək tələbə və magistrantı vergilərə dair biliklərini nümayiş etdirmişlər.

12 ildir ki, nazirliyin təşəbbüsü və Tofiq İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının dəstəyi ilə 1 İyun - Uşaqları Beynəlxalq Müdafiə Günü ərəfəsində «Vergilər uşaqların gözü ilə» rəsm və inşa müsabiqələri keçirilir. Respublikanın regionlarında da bu cür müsabiqələr təşkil olunmuşdur.

**A.NƏBİYEVA**

# Audit və operativ nəzarət məsələləri müzakirə olunub

*Tədbirdə vergidən yayınmanın qarşısının alınması üçün həyata keçirilən tədbirlərin gücləndirilməsi zəruriliyi qeyd edilib*

Yanvarın 24-də Vergilər Nazirliyində audit və operativ nəzarət strukturları tərəfindən həyata keçirilən vergi nəzarəti tədbirlərinin vəziyyəti, POS-terminalların tətbiqinə nəzarətin həyata keçirilməsinin təmin edilməsi üçün yaradılmış qərargahda qəbul edilən qərarların icra vəziyyəti və qarşıda duran vəzifələrin icrası istiqamətlərinə həsr olunmuş iclas keçirilmişdir. İclasda Vergilər nazirinin Audit və operativ nəzarət sahələri üzrə müşavir xidməti şöbəsinin rəisi, kiçik vergi xidməti müşaviri Toğrul Quliyev, Vergi auditi Baş İdarəsinin Təhlil şöbəsinin rəisi Zahid Rzayev, Operativ nəzarət idarəsinin Operativ nəzarətin təşkili şöbəsinin rəisi Vahid İsayev, Audit və operativ nəzarət sahələri üzrə müşavir xidməti şöbəsinin Audit yoxlamalarının təhlili bölməsinin rəisi Orxan Cəfərzadə və Operativ vergi nəzarəti tədbirlərinin təhlili bölməsinin rəisi Vüsal Məmmədov, eləcə də yerli vergi orqanlarının audit və operativ nəzarət şöbələrinin rəisləri iştirak etmişlər.

İclasda 2014-cü il ərzində aparılmış səyyar vergi yoxlamaları və operativ nəzarət sahəsində görülmüş işlər, nəzarət tədbirlərinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminə (AVİS) daxil edilməsində nəzərdə tutulan yeniliklər və bu tədbirlərin Ədliyyə Nazirliyində qeydiyyata alınması sahəsindəki bəzi ləngimələr, obyektlərdə POS-terminalların quraşdırılması və istifadə olunmasına nəzarət, vergi orqanlarının nəzarət əhatəsinə aid ərazilərdə fəaliyyət göstərən vergi ödəyicilərinə vergi nəzarəti məsələləri müzakirə edilmişdir.

Tədbir iştirakçılarına yerli vergi orqanları tərəfindən həyata keçirilmiş nəzarət işlərinin vəziyyəti, səyyar vergi yoxlamaları, yoxlamalar nəticəsində hesablanmış əlavə vəsaitin və tətbiq edilmiş maliyyə sanksiyalarının məbləğləri, onların büdcəyə alınması vəziyyəti barədə ətraflı məlumat verilmişdir. İclas zamanı vergi orqanlarının operativ nəzarət strukturları tərəfindən həyata keçirilmiş nəzarət tədbirlərinin nəticələri, bu yoxlamalar üzrə vergi ödəyicilərindən daxil olmuş şikayətlər, onlara baxılmasının vəziyyəti də nəzərdən keçirilmişdir. Müzakirələr zamanı vergidən yayınmanın qarşısının alınması üçün həyata keçirilən operativ vergi nəzarəti tədbirləri və xronometraj metodu ilə aparılan müşahidələrin vacibliyi ilə yanaşı, bu tədbirlərin həyata keçirildiyi təsərrüfat subyektlərinin düzgün müəyyən edilməsinin zəruriliyi xüsusi qeyd edilmişdir.

İclasda ərazi vergi orqanlarının nəzarət əhatəsinə aid obyektlərdə quraşdırlımış POS-terminallar və onların işləməsi vəziyyəti, bu sahədə qərargahda qəbul edilən qərarların icra vəziyyəti və görüləcək işlər də müzakirə olunmuşdur.

Qaldırılan məsələlər üzrə hər bir məruzədən sonra ətraflı fikir mübadiləsi aparılmış, keçən il ərzində yerli vergi orqanlarında azalma müşahidə olunan sahələr xüsusi vurğulanmış, 2015-ci ildə bütün sahələrdə həyata keçiriləcək tədbirlərin ciddi nəzarətə götürülməsi və müsbət nəticələrin əldə edilməsinin zəruriliyi bildirilmişdir. Qeyd olunmuşdur ki, audit və operativ nəzarət tədbirləri zamanı hesablanmış vergilərin və müvafiq sanksiyaların dövlət büdcəsinə ödənilməsi, vergi ödəyicilərinin risk meyarları üzrə yoxlanılması və bu kimi digər mühüm məsələlər Vergilər Nazirliyi tərəfindən daim nəzarətdə saxlanılacaqdır.

# Vergi sistemi təkmilləşdirilir

*Ötən il Vergilər Nazirliyinin Vergi siyasəti və Strateji Araşdırmalar Baş idarəsi tərəfindən vergi siyasəti, xüsusilə vergi qanunvericiliyinin təkmilləşdirilməsi, vergi inzibatçılığının müasirləşdirilməsi, vergi proqnozlaşdırılması, xarici ölkələrin vergi sisteminin tədqiqi, həmçinin bələdiyyələrə metodiki köməkliyin göstərilməsi sahələrində bir sıra layihələr həyata keçirilmişdir.*

Vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi istiqamətində bir sıra qanun layihələri hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmiş və bunun əsasında Milli Məclis tərəfindən müvafiq qanunlar qəbul edilmişdir. Binalar üzrə əmlak vergisinin əmlak sahəsinin hər kvadratmetrinə görə, torpaq vergisinin torpaq sahəsinin hər 100 kvadratmetrinə görə hesablanması ilə bağlı qanun layihəsi əsasında «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanun qəbul edilmiş, bu ilin yanvarın 1-dən qüvvəyə minmişdir.

Ötən il elektron ticarətin vergiyə cəlb olunması üzrə qanunvericilik bazasının yaradılması istiqamətində müvafiq komissiya tərəfindən beynəlxalq təcrübə araşdırılmış, real vəziyyət qiymətləndirilərək bir sıra qanunvericilik aktlarına dəyişikliklər barədə təkliflər paketi hazırlanmışdır.

***Bələdiyyə Vergi İnformasiya Sistemi***

Yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi qaydalarının təkmilləşdirilməsi və bu sahədə uçotun, habelə yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin uçotunun elektron qaydada aparılmasının təmin edilməsi məqsədilə «Yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması ilə bağlı Metodiki Vəsait» və «Yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu ilə bağlı Metodiki Vəsait» təsdiq edilmiş və «Bələdiyyələrin vergi sistemi» adlı kitab şəklində çap olunmuşdur. Vergilər Nazirliyinin sifarişi əsasında 5 altsistemdən (bəyannamə, iş qovluğu, kargüzarlıq, şəxsi hesab vərəqəsi, uçot) ibarət «Bələdiyyə Vergi İnformasiya Sistemi» (BVİS) proqram təminatı hazırlanaraq pilot layihə həyata keçirilən bələdiyyələrdə quraşdırılmışdır. Müvafiq proqram təminatının istifadə qaydalarını əks etdirən BVİS adlı istifadəçi təlimatı hazırlanmışdır. Bakı şəhərinin Binəqədi rayonunun beş bələdiyyəsində, Abşeron rayonunun Saray, Şəmkir rayonunun Şəmkir bələdiyyələrində və eləcə də Sumqayıt şəhərinin Sumqayıt bələdiyyəsində (pilot layihəyə öz istəyi ilə qoşulmuşdur) yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin, habelə yerli (bələdiyyə) vergi və ödənişlərin uçotunun tətbiqi üzrə pilot layihə 2014-cü ildə uğurla həyata keçirilmişdir.

İl ərzində pilot layihə həyata keçirilən bələdiyyələrdə 15302 yerli (bələdiyyə) vergi ödəyicisi olan fiziki şəxs qeydiyyata alınmış, həmin şəxslərin mülkiyyətində, icarəsində və ya istifadəsində olan 14776 obyektin (tikili və ya torpaq) qeydiyyat məlumatı BVİS-in bazasına daxil edilmiş, onlardan 8713-ü üzrə tədiyyə bildirişləri hazırlanaraq vergi ödəyicilərinə çatdırılmışdır. Bundan başqa, yerli (bələdiyyə) vergi ödəyicilərinin istifadəsi üçün «İnternet Bələdiyyə İdarəsi» (www.e-belediyye.gov.az) yaradılmışdır.

***Güzəşt və azadolmaların monitorinqi***

2014-cü il ərzində Vergi Məcəlləsi və digər qanunvericilik aktları ilə verilmiş vergi güzəşti və azadolmaların monitorinqi aparılmışdır. Güzəşt və azadolmaların bəyannamə məlumatları əsasında hesablanmasının avtomatlaşdırılması üçün AVİS-də «Strateji araşdırmalar» moduluna aid olan «Vergi güzəştləri» altmodulu yaradılmışdır.

***Xarici təcrübənin təhlili***

Ötən il inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin vergi sistemlərinin təhlilinə kompleks şəkildə yanaşılaraq həmin dövlətlərin vergi sisteminin tədqiqi çərçivəsində icmal-hesabatlar hazırlanmışdır. Müxtəlif ölkələrin vergi sistemləri barədə ətraflı məlumat və vergi yenilikləri barədə informasiyalar hazırlanaraq «Vergilər» qəzetində dərc edilmişdir.

***Elektron kitabxana***

2014-cü ildə «Vergilər Nazirliyinin e-kitabxanasının fəaliyyətinin tənzimlənməsi Qaydaları»na uyğun olaraq, e-kitabxananın müasir dizaynlı və çoxfunksiyalı imkanlara malik istifadəçi interfeysi (e-kitabxana.taxes.gov.az), materialların daxil edilməsi üçün proqram təminatı hazırlanaraq geniş məlumat bazası yaradılmışdır. E-kitabxana ötən ilin iyun ayında vergi orqanı əməkdaşlarının istifadəsinə verilmişdir.

***İcmal-hesabatlar***

«Vergilər Nazirliyinin yaradılmasının 15 illiyi ilə əlaqədar Tədbirlər Planı»nın 3-cü bəndinin icrası məqsədilə «Azərbaycanın vergi sistemi» adlı icmal-hesabat hazırlanmışdır. Buraya Azərbaycan Respublikası barədə ümumi məlumat, ölkədə makroiqtisadi və vergilər üzrə statistik göstəricilər, Vergilər Nazirliyi və onun strukturuna daxil olan qurumlar barədə məlumat, vergi qanunvericiliyi, vergi inzibatçılığı, institusional islahat proqramları, elektron xidmətlər və innovativ layihələr, beynəlxalq əməkdaşlıq, qlobal indekslərdə ölkəmizin mövqeyi və digər sahələr üzrə ətraflı məlumatlar daxil edilmişdir.

«Doing Business 2015» hesabatı araşdırılmış və bununla bağlı icmal hazırlanıb nazirliyin digər struktur vahidlərinə və bölmələrinə təqdim olunmuşdur. İl ərzində «Qlobal rəqabətlilik hesabatı», «KOF-qloballaşma indeksi» və «İqtisadi azadlıq indeksləri» təhlil edilmiş, əldə olunmuş nəticələr Vergilər Nazirliyinin yaradılmasının 15 illiyi ilə əlaqədar tərtib olunan «Azərbaycanın vergi sistemi» adlı icmal hesabatına daxil edilmişdir.

**AYTƏN**

# Nağdsız ödənişlər üçün lazımi maddi-texniki baza yaradılıb



*Müsahibimiz vergilər nazirinin audit və operativ nəzarət sahələri üzrə müşaviri İlqar Əhmədovdur.*

***- İlqar müəllim, ölkəmizdə nağdsız ödəniş sisteminin genişləndirilməsi ilə bağlı görülən işlər barədə məlumat verməyinizi xahiş edirik.***

- Bu gün ölkə iqtisadiyyatının müasirləşməsində, şəffaf idarəetmə sisteminin qurulmasında nağdsız ödəniş sisteminin genişləndirilməsinin rolu danılmazdır. Dünya təcrübəsi sübut edir ki, ölkənin maliyyə və sosial-iqtisadi fəaliyyətində hesabatlılığın və şəffaflığın təmin edilməsi sahəsində mühüm tədbirlərdən biri də nağdsız ödəniş sisteminə keçiddir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişlərinə uyğun olaraq nağdsız ödəniş sisteminin genişləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin əsas məqsədi iqtisadi subyektlər arasında şəffaflığa nail olunmasından, «gizli iqtisadiyyat»ın həcminin azaldılmasından, vergidən yayınma hallarının qarşısının alınmasından ibarətdir. Nəzarətdən kənarda qalan iqtisadi əməliyyatlar bir tərəfdən dövlət büdcəsinə vergi daxilolmalarının azalmasına, digər tərəfdən isə iqtisadi mexanizmlər vasitəsilə dövlət tərəfindən iqtisadi tənzimləmə üsullarının səmərəliliyinin aşağı düşməsinə səbəb olur.

Nağdsız ödənişlər vəsaitlərin dövriyyəsinin sürətləndirilməsində, nağd pulların çapı, daşınması, saxlanması və təsərrüfat əməliyyatlarının xərclərinin azalmasında, bütövlükdə iqtisadiyyatın inkişafında əhəmiyyətli rol oynayır. Nağdsız ödəmə aləti kimi POS-terminallar həm ödəniş kartı sahibləri, həm də biznes subyektləri üçün faydalıdır. Çünki ödəniş məbləğlərinin dəqiq olması və hesablaşmaların rahat aparılması, müştərilərin sayının artırılması, nağd vəsaitlərlə aparılan əməliyyatlarda iş yükünün azaldılması, mal və xidmətlər üzrə hesablaşmalar zamanı təhlükəsizliyin artırılması, şəxsi büdcənin düzgün planlaşdırılması baxımından POS-terminallardan istifadə daha məqsədəuyğundur.

***- Vergilər Nazirliyi tərəfindən 2014-cü ildə nağdsız ödəmə avadanlıqları olan POS-terminalların tətbiqinin genişləndirilməsi ilə bağlı ardıcıl işlər aparılır...***

- Nağdsız dövriyyənin artırılmasının əsas şərtlərindən biri POS-terminalların tətbiqinin genişləndirilməsidir. Ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmaların aparılması, vergilərin və dövlət orqanları tərəfindən göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənilməsi üçün təsərrüfat subyektlərində POS-terminalların quraşdırılması, qeydiyyatı, istifadəsi, eləcə də POS-terminalların tətbiqi ilə bağlı digər münasibətlər Nazirlər Kabinetinin 4 oktyabr 2012-ci il tarixli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi» qaydaları ilə tənzimlənir.

Banklar tərəfindən verilmiş sifarişlər üzrə təkcə 2014-cü ildə ölkəmizə 60 min ədəd POS-terminal gətirilmişdir. Xüsusilə qeyd etmək istəyirəm ki, POS-terminalların bir hissəsi «kart vasitəsilə birbaşa təmas olmadan» istifadəni nəzərdə tutan ən müasir qurğulardır ki, son illərdə bunlar daha çox dünyanın inkişaf etmiş ölkələrində tətbiq edilməyə başlanılmışdır. 2014-cü il yanvarın 1-də respublikada 31 minə yaxın POS-terminal olduğu halda, artıq bu say 82 mini keçmiş, il ərzində daha 51 min POS-terminalın quraşdırılması təmin edilmişdir. İndiyədək quraşdırılmış POS-terminalların 64,1%-i Bakı şəhərinin, 35,9%-i isə regionların payına düşür. 2014-cü ildə əlavə quraşdırılmış POS-terminalların sayında regionların payı daha çoxdur. Bakı şəhəri üzrə POS-terminalların sayında 1,9 dəfə artım baş verdiyi halda, regionlardakı artım 7,1 dəfə olmuşdur. Xüsusilə Sumqayıt, Mingəçevir, Şəmkir, Şirvan və Lənkəran şəhərlərində, Abşeron, Şamaxı, İsmayıllı, Oğuz, Qəbələ, Şəki, Göyçay, Balakən, Qax və Zaqatala rayonlarında POS-terminalların quraşdırılması daha fəal həyata keçirilmişdir.

Vergilər Nazirliyi Mərkəzi Bank və kommersiya bankları ilə birlikdə ölkənin ticarət və xidmət sektorunda ödəmələrin nağdsız qaydada aparılması üçün zəruri infrastrukturun qurulması istiqamətində 2014-cü ilin fevral ayından başlayaraq ciddi tədbirlər həyata keçirir. Nazirlikdə yaradılmış qərargah tərəfindən POS-terminal quraşdırılmalı olan obyektlərin siyahısı müəyyənləşdirilmiş, onların quraşdırılması üçün həyata keçiriləcək proseslərin xəritəsi tərtib olunmuş və banklarla razılaşdırılmışdır. Qərargahın üzvləri ilə yanaşı, yerli vergi orqanlarında bu işlərlə məşğul olacaq məsul şəxslər müəyyən edilmiş və əlavə işçi qüvvəsi cəlb olunmuşdur.

Vergilər Nazirliyi tərəfindən POS-terminallardan istifadənin üstünlükləri və istifadə qaydası barədə mütəmadi olaraq məlumatlandırma işləri aparılır. Vergi ödəyicilərinə obyektlərdə quraşdırılmış POS-terminallardan istifadə vərdişlərinin aşılanması, eləcə də nağdsız ödənişlərin əlverişliliyi və üstünlükləri barədə geniş izahat və təbliğat işlərinin həyata keçirilməsi üçün nazirlik tərəfindən «POS-terminalların tətbiqi ilə əlaqədar vergi ödəyicilərinin məlumatlandırılması zamanı görülməli işlərə dair tövsiyələr» hazırlanmışdır. 2014-cü il ərzində bununla bağlı 22500-dən çox şəxs fərdi şəkildə məlumatlandırılmışdır.

Vergilər Nazirliyinin Mərkəzi Bank və digər təşkilatlarla əlaqəli fəaliyyətinin nəticəsidir ki, POS-terminalların sayının artması ilə yanaşı, onlardan istifadə də genişlənməyə başlamışdır. Ölkə ərazisində POS-terminal vasitəsilə aparılmış əməliyyatların həcmi 2014-cü ilin 11 ayı ərzində 353 milyon manat, yaxud 2013-cü ilin müvafiq dövründəkindən 17 milyon manat və ya 5,1% çox olmuşdur. Bu fakt, eləcə də ölkə vətəndaşlarının həmin dövrdə Azərbaycanın xaricində POS-terminal vasitəsi ilə apardıqları nağdsız ödəmə əməliyyatlarının məbləğinin bundan iki dəfə artıq olduğu nəzərə alınaraq, tam əminliklə söyləmək olar ki, vətəndaşlarımızın böyük hissəsi artıq nağdsız ödənişlərə üstünlük verməyə başlayıb.

2015-ci ildə nağd əməliyyat aparan bütün obyektlərdə POS-terminalların quraşdırılması nəzərdə tutulmuşdur.

***- Azərbaycanda tam nağdsız ödəniş sisteminə keçilməsinə zəmin varmı?***

- Ölkəmizdə nağdsız ödəniş sisteminə keçilməsinə imkan verən amillərdən biri ödəniş kartlarının sayının artıq 6 milyona çatmasıdır. Mövcud POS-terminalların sayı da nağdsız ödəniş sisteminə keçmək üçün kifayət qədərdir. İndi qalır onlardan hər yerdə istifadə edilməsinə nail olmaq. Bunun üçün əhali arasında aparılan maarifləndirmə işləri daha da genişləndirilməli, banklar POS-terminallardan istifadənin əhali üçün iqtisadi cəhətdən daha sərfəli olması üçün konkret əməli tədbirlər görməli, nağd ödənişlərin həcminin azaldılması və nağdsız ödənişlərin stimullaşdırılması üçün qanunvericilikdə bir sıra dəyişikliklər edilməlidir.

Bunlar isə öz növbəsində iqtisadiyyatda şəffaflığın daha da artmasına, ölkə başçısının dəfələrlə vurğuladığı kimi, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə və büdcəyə vergi daxilolmalarının artmasına öz müsbət təsirini göstərəcəkdir.

***- Azərbaycan bu il ilk Avropa Oyunlarına ev sahibliyi edəcək, bu səbəbdən ölkəyə turist axınının artacağı gözlənilir. Bunu POS-terminalların quraşdırılması prosesinin sürətləndirilməsini şərtləndirən amillərdən biri hesab etmək olarmı?***

- Ölkəmizin beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə artması son illər Bakıda və bölgələrdə keçirilən beynəlxalq və regional tədbirlərin miqyasını da genişləndirib. Azərbaycana gələn turistlərin sayında da ciddi artım müşahidə olunur. Tarixdə ilk dəfə Bakıda keçiriləcək Avropa Oyunları zamanı respublikamıza çoxlu sayda idman heyətlərinin və azarkeşlərin gələcəyi gözlənilir və bu qonaqlar, təbiidir ki, Avropa ölkələrində qəbul olunduğu kimi, müxtəlif ticarət, əyləncə, iaşə və s. obyektlərdə nağdsız ödənişlərə üstünlük verəcəklər. Ona görə də Vergilər Nazirliyi tərəfindən Avropa Oyunlarının keçiriləcəyi ərazilərdə POS-terminalların quraşdırılması və onlardan istifadəyə ciddi nəzarət olunur.

# «E-hökumət» portalındakı xidmətlərin əhatə dairəsi genişlənir

*Qəzetimizin ötən nömrəsində Vergilər Nazirliyinin «Elektron hökumət» portalına yeni inteqrasiya olunmuş elektron xidmətlər barədə məlumat vermişdik. Mövzunu davam etdiririk.*

***Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) onlayn qeydiyyatı***

Bu xidmət vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) elektron qaydada qeydiyyata alınmasını əhatə edir. Elektron xidmət 2 iş günü ərzində yerinə yetirilir və nəticədə vergi ödəyicisinin təsərrüfat subyekti (obyekti) vergi uçotuna alınır. Elektron xidmət ödənişsiz həyata keçirilir və onun istifadəçiləri Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirilmə nömrəsi (VÖEN) almış hüquqi və fiziki şəxslərdir.

Xidmətin göstərilməsi üçün vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) vergi uçotuna alınması barədə ərizə və təsərrüfat subyektinin (obyektinin) bu fəaliyyətin yerinə yetiriləcəyi ünvanı təsdiq edən sənədin surəti tələb olunur. Xidmətin təqdim edildiyi elektron ünvandan ərizədə olan məlumatlar interaktiv şəkildə vergi ödəyicisi tərəfindən sistemə daxil edilir, digər sənədlər isə PDF formada əlavə olunur. Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) qeydiyyatı ilə bağlı bütün əməliyyatlar başa çatdıqdan sonra «İrəli» düyməsi basılır. Bu halda daxil edilmiş məlumatların yoxlanılması üçün təsdiqləmə ekranı gəlir. İstifadəçi məlumatların doğruluğuna əmin olduqda, onu təsdiqləmək üçün «Qəbul», əks halda isə «İmtina» düyməsini basır.

İnteraktiv xidmətlərin istifadəçilərinin Vergilər Nazirliyi tərəfindən verilmiş şifrə və parolu və ya gücləndirilmiş elektron imzası olmalıdır. Bunlardan istifadə etməklə sistemə daxil olduqda istifadəçiyə təklif olunan ərizə formasını doldurmaq və təsdiq etmək imkanı yaranır.

Qeyd edək ki, vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) ən azı bir fəaliyyət növü olmalıdır və həmin fəaliyyət əsas fəaliyyət kimi qeyd edilməlidir. İcarəyə götürülən təsərrüfat subyekt(lər)inin (obyekt(lər)inin) ümumi sahəsi icarəyə verən təsərrüfat subyektinin (obyektinin) ümumi sahəsindən çox olmamalıdır. Əks hallarda vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) qeydiyyatı ərizəsinin icraya qəbul edilməsindən imtina edilir.

Ərizənin göstəriciləri ilə ona elektron formada əlavə olunmuş sənədlərdə kənarlaşmalar aşkar edildikdə vergi ödəyicisinin təsərrüfat subyekti (obyekti) qeydiyyata alınmır.




***ƏDV məqsədləri üçün qeydiyyatın onlayn ləğv edilməsi***

Bu xidmət 30 gün ərzində yerinə yetirilir. Ödənişsiz həyata keçirilən bu xidmətin istifadəçiləri Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada ƏDV məqsədləri üçün qeydiyyata alınmış hüquqi və fiziki şəxslərdir.

Elektron xidmətin göstərilməsi üçün vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyatının ləğv edilməsi barədə ərizə tələb olunur. Xidmətin təqdim edildiyi elektron ünvandan ərizədə olan məlumatlar interaktiv şəkildə vergi ödəyicisi tərəfindən sistemə daxil edilir.

ƏDV məqsədləri üçün qeydiyyatın ləğv edilməsi barədə ərizə İnternet Vergi İdarəsi portalının «Onlayn Kargüzarlıq» bölümü üzərindən işlənilir. Bu məqsədlə «Yeni müraciət» düyməsi sıxılır və açılan pəncərədə «Kimə» siyahısından - Vergilər Nazirliyi, «Müraciətin növü» siyahısından - Ərizə, «Sənədin növü» siyahısından - ƏDV qeydiyyatının ləğv olunması ərizəsi seçilir və «Qəbul» düyməsi sıxılır. Açılan ekranda siyahıdan ƏDV qeydiyyatının ləğvi səbəbi seçilir, ləğv tarixi və ƏDV-nin ləğvetmə tarixinə vergi ödəyicisinin sahibliyində qalan malların məbləği daxil edilir.

ƏDV məqsədləri üçün ləğvlə bağlı bütün əməliyyatlar başa çatdıqdan sonra «İrəli» düyməsi basılır. Bu halda daxil edilmiş məlumatların yoxlanılması üçün təsdiqləmə ekranı gəlir. İstifadəçi məlumatların doğruluğuna əmin olduqda onu təsdiqləmək üçün «Qəbul», imtina etmək üçün isə «İmtina» düyməsindən istifadə edir.

Sistem tərəfindən vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyatda olub-olmaması yoxlanılır. Əgər vergi ödəyicisi ƏDV qeydiyyatında deyilsə, ərizənin icraya qəbul edilməsindən imtina edilir. Vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyatı Vergi Məcəlləsinin 158.2-ci bəndinə əsasən ləğv olunduğu halda, əvvəlki tam 12 təqvim ayı ərzində ƏDV-yə cəlb edilən dövriyyə 60000 manatdan çox olduqda ərizənin icraya qəbul edilməsindən imtina edilir. Bu məsələlərə sistem tərəfindən avtomatik nəzarət olunur və ekrana müvafiq mesajlar çıxarılır.

İstifadəçilər xidmətlərdən istifadə üçün autentifikasiyadan keçməlidirlər.

**AYTƏN**



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Beynəlxalq vergitutma və onun tətbiqi

Qabaqcıl dünya ölkələrinin vergi sistemləri hazırda öz inkişafının yüksək mərhələsinə çatmışdır. Praktiki olaraq dünyanın əksər ölkələrinin vergi orqanları yüksək kompüter texnologiyaları ilə təmin olunmuş, vergi nəzarəti və tədqiqatlarını həyata keçirən xidmət strukturları yaradılmışdır. Onu da qeyd etmək lazımdır ki, vergi ödəyiciləri də yüksək ixtisasa malik hüquqşünasların və mühasiblərin köməyi ilə vergilərin qanuni yolla minimallaşdırılması istiqamətində tədbirlər görürlər.

Müasir dünyada vergilər dövlətin maliyyə təminatında və şirkətlərin maliyyə siyasətinin müəyyən edilməsində mühüm əhəmiyyətə malik olmaqla yanaşı, həm də beynəlxalq iqtisadi əlaqələrin və münasibətlərin tənzimlənməsində böyük rol oynayır. Vergilərin beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində istifadə edilən səmərəli alət olmasını nəzərə alan dövlətlər öz maraqlarının müdafiəsi üçün onun vasitəsilə müxtəlif maneə və məhdudiyyətlər qoyur. Bu zaman dövlətin həyata keçirdiyi xarici iqtisadi fəaliyyətin səmərəliliyi, ilk növbədə, ölkədəki mövcud mürəkkəb və çoxpilləli vergi sistemindən asılı olur.

Beynəlxalq hüquq prinsiplərinə əsasən, vergilərin tutulması o vaxt qanuni sayılır ki, vergitutmanın subyekti və obyekti birbaşa dövlət qanunlarının təsiri altına düşmüş olsun. Hər bir dövlət qüvvədə olan qanunları ilə öz ərazisində vergitutma sisteminin strukturunu, vergi dərəcələrini və vergilərin tutulması mexanizmini müəyyən edir.

*Vergilərin vətəndaşlıq və ərazi prinsipləri əsasında tutulması dünyanın bütün ölkələrində mövcuddur*

Bütün ölkələrdə müəyyən olunmuş vergi rejimlərini tənzimləyən normalar ölkənin həm rezidentləri üçün, həm də ölkədə fəaliyyət göstərən xarici ödəyicilər üçün müəyyən edilir. Ayrı-ayrı ölkələrin vergitutma sahəsindəki qanunvericilik aktlarının normalarının fərqli olmasına baxmayaraq, vergitutma mexanizminin müəyyən edilməsində iki əsas yanaşmadan istifadə olunur. Hər iki yanaşma vergi öhdəliklərinin yaranmasının əsas səbəbi olaraq, ölkə daxilində vergi münasibətlərin qurulmasının fərdi (subyekt) və ya predmetli (obyekt) əlaqələrini nəzərdə tutur.

Fərdi əlaqələr onun həm hüquqi, həm də iqtisadi cəhətdən ərazi mənsubiyyətini göstərir. Hüquqi mənsubiyyətin bir əlaməti kimi fiziki şəxslərin vətəndaşlığı və ya hüquqi şəxslərin olduğu yer qəbul edilir. Eyni zamanda, dövlətlə iqtisadi əlaqənin əlaməti kimi fiziki şəxsin yaşadığı yer və ya daimi olduğu yer, hüquqi şəxsin isə fəaliyyət göstərdiyi yer başa düşülür. Bunlarla əlaqədar olaraq, vergitutma subyektin milli əlamətinə - fiziki şəxsin yaşadığı yerə və hüquqi şəxsin fəaliyyət göstərdiyi yerə görə müəyyən edilir. Bu əsaslara əsasən, vergi ödəməli şəxslər yerli vergi ödəyiciləri və ya məhdud olmayan vergi öhdəlikləri olan şəxslərə aid edilir. Bir ölkədə qeydiyyatdan keçmiş vətəndaşlar və hüquqi şəxslər məhdud olmayan vergi öhdəlikləri daşıyaraq, vergiləri ümumi gəlirlərindən və ya bütün əmlaklarından ödəyirlər. Bu zaman vergitutma vətəndaşlıq prinsipi üzrə tutulur. Dövlətlə fərd arasında əlaqə olmadığı halda, vergi ödəmək öhdəliyi dövlətlə predmet əlaqəsi olduqda meydana çıxır. Bu o zaman baş verir ki, gəlir həmin ölkənin ərazisində əldə edilsin və ya əmlak onun ərazisində yerləşsin. Belə vergi subyektləri məhdud vergi öhdəliyi olan xarici ödəyicilər sayılır. Vergi öhdəliklərinin məhdudluğu onu nəzərdə tutur ki, ya gəlir ölkə ərazisində yaradılsın, ya da əmlak bu ölkənin ərazisində olsun. Vergitutmanın bu prinsipi ərazi prinsipi adlanır.

Vergilərin vətəndaşlıq və ərazi prinsipləri əsasında tutulması dünyanın bütün ölkələrində mövcuddur. Hər bir dövlət müstəqil surətdə öz vergitutma sistemini müəyyən edir. Vergitutma sistemlərinin fərqliliyi isə müəyyən iqtisadi inkişaf səviyyəsinə uyğun olaraq yaranır: inkişaf etməkdə olan ölkələrdə vergitutmanın ərazi prinsipi, inkişaf etmiş ölkələrdə isə vətəndaşlıq prinsipi daha çox yayılmışdır. Bununla yanaşı, bir çox ölkələrin vergi siyasətində hər iki prinsip əsas tutularaq ölkənin rezidenti sayılan fiziki və hüquqi şəxslər məcmu gəlirlərinə görə məhdud olmayan vergi öhdəliyi əsasında vergiyə cəlb edilirlər. Əgər gəlirlər xarici fiziki və hüquqi şəxslərin ölkə ərazisindəki fəaliyyəti nəticəsində əldə edilərsə, onların vergiyə cəlb olunması məhdud vergi öhdəliyi əsasında həyata keçirilir. Vergi ödəyicisi ölkənin rezidenti və ya vətəndaşı olmadıqda fərdin vergiyə cəlb olunması əldə edilən gəlirin ölkə ərazisi ilə bağlı olduğu halda həyata keçirilir. İnkişaf etmiş ölkələrin bir çoxunda xarici fiziki və hüquqi şəxslərin vergiyə cəlb olunması ümumi əsaslarla həyata keçirilir. Həmin əsaslar, adətən, icraedici orqanların təlimatlarında, məhkəmə qərarlarında, adətlərdə və s. konkretləşdirilir. Bu məsələ ilə bağlı ölkələrin ümumi mövqeyində iki əsas yanaşmanı qeyd etmək olar:

- dövlətin ərazisində xarici vergi ödəyiciləri tərəfindən fəaliyyətin göstərilməsi üçün daimi fəaliyyət göstərən xarici təşkilatın olması;
- ölkə ərazisində fəaliyyətin həyata keçirilməsi faktının olması.

Beləliklə, bu nəticəyə gəlmək olar ki, xarici vergi ödəyicilərinin dövlətlə olan fərdi və ya predmet əlaqələrinə görə vergiyə cəlb olunmasının əsas xüsusiyyəti qanunla müəyyən edilmiş vergilər ödənilməklə onların ölkənin idarə olunması xərclərinin çəkilməsi prosesində iştirakından, dövlət tərəfindən isə onlara gəlir əldə etmək şəraitinin yaradılmasının təmin edilməsindən ibarətdir.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Zinət əşyaları üçün vergi

***Xarici ölkədən şəxsi istifadə məqsədləri üçün zinət əşyası gətirdiyim təqdirdə hansı vergiləri ödəməliyəm?***

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (bundan sonra - Məcəllə) 190-cı maddəsinə əsasən, 11 yanvar 2015-ci ildən idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz aksizli malların siyahısına aid edilmişdir.

Məcəllənin 185.2-ci maddəsinə əsasən, idxal olunan platinə görə vergi tutulan əməliyyat platinin hər qramı, qızıla, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarına görə - qızılın min çəki vahidindəki miqdarı, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaza görə - almazın karatıdır. 188.1.1-ci maddədə göstərilir ki, fiziki şəxsin fərdi istehlakı üçün 20 qram qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş 0,5 karat almazın idxalı aksizdən azad edilir. 188.2-ci maddəyə görə, Məcəllənin 188.1-ci maddəsində göstərilən aksizdən azadolmalar yalnız o zaman tətbiq edilir ki, gömrük rüsumlarından azadolmaların şərtlərinə əməl edilmiş olsun. Əgər gömrük rüsumu tutulması məqsədləri üçün idxal rüsumun geri qaytarılması rejiminin təsiri altına düşürsə və ya azadolmanın şərtləri pozulduğu üçün gömrük rüsumunun ödənilməsi tələb edilirsə, həmin rejim aksizin tutulmasına da tətbiq olunur.

Məcəllənin 190.4-cü maddəsinə əsasən, Azərbaycan Respublikasına idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaza aşağıdakı aksiz dərəcələri tətbiq edilir:

♦ idxal olunan platinin hər qramına görə - 2 manat;

♦ idxal olunan qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının min çəki vahidindəki miqdarına görə:

– qızılın min çəki vahidindəki miqdarı 375 (üç yüz yetmiş beş) olduqda, hər qramına görə - 0,8 manat;

– qızılın min çəki vahidindəki miqdarı 500 (beş yüz) olduqda, hər qramına görə - 1 manat;

– qızılın min çəki vahidindəki miqdarı 585 (beş yüz səksən beş) olduqda, hər qramına görə - 1,2 manat;

– qızılın min çəki vahidindəki miqdarı 750 (yeddi yüz əlli) olduqda, hər qramına görə - 1,5 manat;

– qızılın min çəki vahidindəki miqdarı 958 (doqquz yüz əlli səkkiz) olduqda, hər qramına görə - 1,8 manat;

– qızılın min çəki vahidindəki miqdarı 999 (doqquz yüz doxsan doqquz) olduqda, hər qramına görə - 2 manat;

♦ idxal olunan emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazın 1 karatı üçün 200 manat (aksiz dərəcəsi) olmaqla, aşağıdakı qaydada hesablanır:

– almazın bir ədədinin miqdarı 1 karatdan aşağı olduqda, aksiz dərəcəsi almazın faktiki miqdarına mütənasib olaraq azaldılır;

♦ almazın bir ədədinin miqdarı 1 karatdan yuxarı olduqda, aksizin məbləği aksiz dərəcəsi ilə almazın faktiki miqdarının hasilinə aşağıdakı əmsallar tətbiq edilməklə hesablanır:

- 1 karatdan 2 karatadək olduqda - 2,0;
- 2 karatdan 3 karatadək olduqda - 3,0;
- 3 karatdan 4 karatadək olduqda - 4,0;
- 4 karatdan 5 karatadək olduqda - 5,0;
- 5 karatdan yuxarı olduqda - 10,0.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

# Dövlət Neft Fondunun 2015-ci il üçün gəlir və xərcləri

Ötən həftə Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) 2015-ci il üçün büdcəsini təsdiq edib. Dövlət başçısının fərmanına əsasən, fondun builki gəlirləri 10 mlrd. 246 mln. 611,9 min manat, xərcləri isə 11 mlrd. 813 mln. 909,2 min manat təşkil edəcək.

Dövlət Neft Fondunun 2015-ci il büdcəsinin gəlirləri bir neçə mənbədən formalaşacaq. İlk növbədə buraya Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərti ilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçiləri, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) daxildir. Həmin mənbədən fondun büdcəsinə 9 mlrd. 741 mln. 175,6 min manat vəsait daxil olacağı gözlənilir.

Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün ödənilən akrhesabdan ARDNF-nin büdcəsinə 1 mln. 568,4 min manat vəsait köcürüləcək. Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər isə 9 mln. 410,4 min manat təşkil edəcək.

Qeyd edək ki, ARDNF özünün valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından da gəlirlər əldə edir. Bu il fond həmin mənbədən 494 mln. 357,5 min manat qazanacaq. Qanunvericiliyə uyğun olaraq Dövlət Neft Fondunun digər mənbələrdən əldə etdiyi gəlirlər 100 min manat təşkil edəcək.

Fondun 2015-ci il büdcəsinin xərcləri, əsasən, dövlət büdcəsinə transfert və sosial məsələlərə yönəldiləcək. Bu il ARDNF dövlət büdcəsinə 10 mlrd. 388 mln. manat vəsait transfert edəcək.

Qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsinə fondun büdcəsindən 150 mln. manat ayrılacaq. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin maliyyələşdirilməsinə isə 111 mln. 487 min manat vəsait yönəldiləcək. «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın maliyyələşdirilməsinə 44 mln. 88 min manat xərclənəcək. «Cənub» Qaz Dəhlizi layihələrində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsinə çəkilən xərclərin miqdarı isə 997 mln. 16,2 min manat təşkil edəcək.

2015-ci ildə ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri 33 mln. 318 min manat olacaq.

**Rəşad SADIQOV**

# Zamanın ahənginə uyğun...



*Suallarımızı Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Aparatının rəhbəri Vidadi Zeynalov cavablandırır.*

***- Vidadi müəllim, ölkəmizdə İKT, informasiya və poçt sektoru 2014-cü ili hansı göstəricilərlə yola salıb?***

- «Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya»nın təsdiq edilməsi, struktur dəyişikliyinin aparılması, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) tərkibində yeni qurumun yaradılması daha bir mərhələnin başlanğıcıdır. Milli Strategiyanın təsdiqi iqtisadiyyatın davamlı və sabit inkişafı baxımından rabitə və yüksək texnologiyalar sektorunun roluna yüksək önəm verildiyini bir daha təsdiqləyir.

Ötən il bu sahədə əldə olunan gəlirlərin həcmi əvvəlki illə müqayisədə 16,2% artıb və 1,7 milyard manatı ötüb, sektorun ÜDM-də payı 1,9%, qeyri-neft sektorunda 3,2% təşkil edib. Gəlirlərdə özəl sektorun payı 77%-dən 80%-ə yüksəlib. Bakı Telefon Rabitəsi İstehsalat Birliyi (BTRİB) şəbəkəsində beynəlxalq şəbəkəyə 200 Gbit/s sürətlə qoşulma imkanı verən internet platforması qurulub, «Bakinternet» xidmətinin qlobal internet şəbəkəsinə qoşulma sürəti ilin əvvəli ilə müqayisədə 6,5 Gbit/s artırılaraq 36,5 Gbit/s-yə çatdırılıb.

Respublika üzrə əhalinin hər 100 nəfərinə düşən telefon aparatlarının sayı 18,65, hər 100 ailəyə düşən telefon aparatlarının sayı isə 69,01, hər 100 nəfərə düşən mobil abunəçilərin sayı isə 110-dur. Azərbaycan 100 nəfərə düşən sabit telefon abunəçilərinin sayına görə ümumdünya orta göstəricisini 18%, mobil abunəçilərin sayına görə isə 15,2% üstələyir.

2013-cü illə müqayisədə beynəlxalq internet kanallarının tutumu 50 Gbit/s artırılaraq 300 Gb/s-ə çatdırılıb. Hazırda ölkə əhalisinin 73%-i internet, 55%-i isə genişzolaqlı xidmət istifadəçisidir. Hər iki göstərici üzrə Azərbaycan dünya orta göstəricisini təqribən 2 dəfə qabaqlayır.

Ötən il Azərbaycan «Azərsky» peykinə sahib olması ilə tarixə düşdü. «Azərbaycan və Fransa arasında kosmik sənaye üzrə strateji əməkdaşlıq» çərçivəsində 2014-cü ilin iyun ayında orbitə çıxarılmış və yeni adı «Azərsky» olan Spot 7 yüksək ayırdetməli yer səthinin məsafədən müşahidə peykinə sahib olduq. Sevindirici haldır ki, ölkə Prezidenti həm 2014-cü ilin başa çatması ilə bağlı xalqa müraciətində, həm də Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş nitqində Azərbaycanın yer səthinin müşahidəsi üzrə «Azərsky» peykinə sahib olmasını 2014-cü ildə ilin əlamətdar hadisələrindən biri kimi vurğulayıb. «Azerspace-2» ikinci telekommunikasiya peykinin orbitə çıxarılması üzrə texniki-iqtisadi əsaslandırma yaxın vaxtlarda hökumətə təqdim ediləcək.

Azərbaycanın ilk peyki olan «Azerspace-1» peykinin tutumunun satışı üzrə işlər davam etdirilib və peyk üzərindən yerli və beynəlxalq səviyyəli 130 televiziya və 20 radio kanalı yayımlanır. «Azərkosmos» ASC və ABŞ Ticarət və İnkişaf Agentliyi (USTDA) arasında imzalanmış qrant müqaviləsinə uyğun olaraq, seçilmiş şirkət tərəfindən «Azerspace-2» ikinci telekommunikasiya peykinin orbitə çıxarılması üzrə texniki-iqtisadi əsaslandırma hazırlanıb.

*Hazırda ölkə əhalisinin 73%-i internet, 55%-i isə genişzolaqlı xidmət istifadəçisidir*

***- İnformasiya sistemlərinin dövlət qeydiyyatı barədə nə deyə bilərsiniz?***

- 2014-cü ildə 41 dövlət informasiya ehtiyatı və 56 fərdi məlumatların informasiya sistemi dövlət qeydiyyatına alınıb. Beləliklə, qeydiyyata alınmış informasiya ehtiyatlarının sayı 78-ə, informasiya sistemlərinin sayı isə 153-ə çatıb.

Əhaliyə göstərilən rabitə xidmətlərinin münasibliyinin təmin edilməsi məqsədilə telefon rabitəsi tarifləri bu il yanvarın 1-dən əhəmiyyətli dərəcədə aşağı endirilib. Yeni dəyişikliyə əsasən, telefon çəkilişi tarifi 40-120 manatdan 30 manata, beynəlxalq danışıq tarifləri 1 dəqiqə üçün 36, 45 və 54 qəpikdən bütün zonalar üzrə 32 qəpiyə, şəhərlərarası danışıq tarifi 1 dəqiqə üçün 7 qəpikdən 5 qəpiyə endirilib. Tariflərin maya dəyərinə uyğunlaşdırılması üzrə işlər davam etdirilir.

***- Ən mühüm tendensiyalardan biri də əhalinin elektron xidmətlərdən istifadəsidir...***

- Bu göstərici keçən il 1 milyondan 6,7 milyona qədər artıb. «Elektron hökumət» portalına qoşulan qurumların ümumi sayı 46-ya çatıb. Nazirlər Kabineti tərəfindən təsdiq olunan xidmətlərdən portala inteqrasiya olunanların sayı artaraq 322-yə, ümumi xidmətlərin sayı 398-ə çatıb. «E-hökumət» portalına daxil olan istifadəçilərin sayı isə 0,8 milyon nəfər artaraq 1,14 milyon nəfərdən çox olub. Əhaliyə verilmiş e-imzaların sayı 10.941 ədəd artırılaraq 28.579 ədədə çatdırılıb. «ASAN imza» ilə birlikdə əhaliyə verilmiş e-imzaların sayı isə 140 mini ötüb.

Qeyd edim ki, «Mobil hökumət» texnologiyasının tətbiqi məqsədilə «Elektron hökumət» portalının mobil tətbiqi hazırlanıb və 10 e-xidmət daxil edilib. Bu il xidmətlərin sayının 40-a çatdırılması nəzərdə tutulur.

***- İnformasiya təhlükəsizliyi ilə bağlı hansı tədbirlər görülür?***

- Hazırda Beynəlxalq Standartlaşdırma Təşkilatının təhlükəsizlik üzrə 4 identik milli standartının layihəsi hazırlanıb, onlardan 2-si üzrə aidiyyəti qurumlardan müsbət rəy alınıb və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydə alınması üzrə işlər aparılır.

Elektron Təhlükəsizlik Mərkəzində (ETM) Təhlükəsizlik Əməliyyat Mərkəzinin qurulması üçün texniki tələblər müəyyən edilib, beynəlxalq təcrübənin öyrənilməsinə başlanılıb...

Ötən il müsair texniki tələblərə uyğun və yüksək etibarlılıq səviyyəsinə və informasiya təhlükəsizliyi standartlarına cavab verən «Data Mərkəz»in yaradılması üzrə işlərə başlanılıb.

***- Beynəlxalq təşkilatlarla əməkdaşlıq nə səviyyədədir?***

- Ötən il beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində işlər davam etdirilib. Koreyanın Busan şəhərində keçirilmiş Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Səlahiyyətli Konfransında Azərbaycan ilk dəfə olaraq BTİ-nin Şurasına üzv seçilib. 2014-cü ilin dekabrında keçirilmiş 20-ci «BakuTel-2014» beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi-konfransında ümumilikdə dünyanın 23 ölkəsindən 250 şirkət məhsul və xidmətlərini nümayiş etdirib. Sərgi-konfrans çərçivəsində bır sıra beynəlxalq və yerli səviyyəli tədbir və görüşlər təşkil edilib.

***- Avropa Oyunlarına hazırlıqla bağlı vəziyyət nə yerdədir?***

- Bu istiqamətdə işlər bütün gücü ilə davam etdirilir. Oyunlarda istifadə ediləcək radio tezliklərin operativ ayrılması məqsədilə müvafiq sayt yaradılıb və respublikaya gətiriləcək radioelektron avadanlıqların testi üçün müvafiq cihazlar alınıb. Oyunlara hazırlıq üzrə rabitə layihələrinin vaxtında icrasına nəzarət etmək məqsədilə Əməliyyat Komitəsi və RYTN-in nümayəndələrinin iştirakı ilə görüşlər və müzakirələr keçirilir. Gənclər və İdman Nazirliyi və RYTN arasında əməkdaşlıq protokolu imzalanıb. I Avropa Oyunlarına həsr olunmuş markaların ilk nümunələri hazırlanaraq Gənclər və İdman Nazirliyinin keçirdiyi tədbirdə nümayiş etdirilib.

***- 2015-ci ildə qarşıda duran vəzifələrlə bağlı nə deyə bilərsiniz?***

- Artıq 2015-ci il üçün bütün sahələr üzrə müvafiq tədbirlər və icra planları təsdiq edilib və onların icrasına başlanılıb. Kosmik sahənin inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi və genişzolaqlı internet və müasir rabitə infrastrukturunun yaradılmasını nəzərdə tutan layihələrin icrasına başlanılması, elektron xidmətlərin tətbiqinin genişləndirilməsi nəzərdə tululur. Yüksək texnoloji və elmtutumlu məhsulların hazırlanması üzrə Yüksək Texnologiyalar Parkının təməlinin qoyulması və fəaliyyətinin təşkili, nüvə texnologiyalarından dinc məqsədlərlə istifadə üzrə «Milli Nüvə Tədqiqatları Mərkəzi» Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili sektorun inkişafına yeni təkan verəcək. «Data Mərkəz»in istifadəyə verilməsi, respublikada mərkəzləşmiş avtomatik radiomonitorinq şəbəkəsinin yaradılması layihəsi çərçivəsində Bakı şəhəri və Abşeron yarımadası üzrə stansiya və idarəetmə mərkəzinin tam fəaliyyətə başlaması, rəqəmli yayımın bütövlüklə ölkə ərazisini əhatə etməsi yeniliklər sırasında olacaq. Əlbəttə, I Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi ilə əlaqədar zəruri tədbirlərin görülməsi də 2015-ci ildə qarşıda duran əsas vəzifələrimizdəndir.

***Müsahibəni hazırladı:***
**Fəxriyyə İKRAMQIZI**

# «Kənd təsərrüfatı ili»nin prioritetləri

*Prezident İlham Əliyevin sərəncamına əsasən, 2015-ci il Azərbaycanda «Kənd təsərrüfatı ili» elan edilib*

Bu il çərçivəsində kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, əhalinin ərzaq təhlükəsizliyinin təmin olunmasının yaxşılaşdırılması, aqrar sahədə ixrac potensialının artırılması məqsədi ilə yeni layihələrin həyata keçirilməsi və digər mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Kənd təsərrüfatı naziri Heydər Əsədov bildirib ki, qeyri-neft sektorunun aparıcı sahəsi olan aqrar sahəyə dövlət dəstəyi gücləndiriləcək, bu sahənin inkişafı ilə bağlı yeni üsullar tətbiq olunacaq. Aqrar sahədə fəaliyyət göstərən istehsalçılar və emalçılar arasında kooperasiya əlaqələrinin inkişaf etdirilməsi, rəqabətqabiliyyətli məhsul istehsalının artırılması əsas hədəflərdən olacaq.

Kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması və emalının yaxşılaşdırılması, iri fermer təsərrüfatlarının yaradılması, rəqabətqabiliyyətliliyin artırılması məqsədilə mütərəqqi texnologiyaların tətbiqi, aqrotexservis xidmətləri şəbəkəsinin genişləndirilməsi, kənd təsərrüfatının texnikaya, mineral gübrələrə və pestisidlərə olan tələbatının ödənilməsi üçün maddi-texniki bazanın gücləndirilməsi nəzərdə tutulur. Bununla yanaşı, aqrar sənayenin yenidən qurulması, kənd təsərrüfatı məhsulları ixracının artırılması, bu sahədə istehsalçıların və istehlakçıların maraqlarının qorunması və ərzaq bazarının səmərəli fəaliyyətinin təmin olunması aqrar siyasətin müasir prinsiplərini təşkil edir.

Eroziyaya uğramış və şoranlaşmış torpaqlar texniki və bioloji rekultivasiya tədbirləri həyata keçirməklə yenidən torpaq dövriyyəsinə qaytarılacaq, texniki nəzarət, fitosanitar, toxumçuluq, tingçilik və damazlıq işlərinin inkişafı üçün dövlət tərəfindən konkret tədbirlər görüləcək. Suvarma sistemlərinin yaxşılaşdırılması, yeni su anbarlarının yaradılması nəzərdə tutulur. Artıq ölkənin suvarma sistemində mühüm əhəmiyyəti olan Samur-Abşeron kanalının imkanlarının artırılması hesabına regionlarda kənd təsərrüfatının intensiv inkişafına nail olunmaqdadır.

«Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün büdcədən 186,2 mln. manat vəsait ayrılacaq. Bu, 2014-cü illə müqayisədə 55,2 milyon manat, yaxud 42,1% çoxdur. Sahibkarlığa Kömək Milli Fondu və Kənd Təsərrüfatınının İnkişafı üzrə Kredit Agentliyinin xətti ilə əlavə olaraq fermerlərə güzəştli kreditlərin verilməsi nəzərdə tutulur. Kənd təsərrüfatı mülkiyyətçilərinə maliyyə dəstəyini artırmaq məqsədilə aqrar yönümlü bankın yaradılması nəzərdə tutulur. Artıq Mərkəzi Bank bu məsələyə müsbət rəy verib və ixtisaslaşdırılmış aqrar bankın yaradılması üçün iqtisadi mexanizmlər nəzərdən keçirilir.

Kənd təsərrüfatına yararlı torpaqlardan və su resurslarından səmərəli istifadə olunması məqsədilə 12 rayonda 30 min hektardan artıq sahədə 19 iri fermer təsərrüfatı yaradılacaq. Bu il ilk aqroparkın əsasının da qoyulması nəzərdə tutulur.

Kənd Təsərrüfatı və İqtisadiyat və Sənaye nazirlikləri aqroparkların yaradılması üçün birgə işlər görəcək. Aran və Şirvan bölgəsində, Xızı rayonunda aqroparkların yaradılması məqsədilə baş plan hazırlanır.

**Davamı 5-ci səhifədə**

# 2014-cü ilin makroiqtisadi göstəriciləri açıqlanıb

Dövlət Statistika Komitəsindən verilən məlumatda bildirilir ki, iqtisadi və sosial tərəqqinin əsas keyfiyyət göstəricisi olan ümumi daxili məhsul (ÜDM) istehsalı 2013-cü illə müqayisədə 2014-cü ildə 2,8% artaraq 59 mlrd. manata çatmışdır. Əlavə dəyərin 41,5%-i sənaye sahələrində, 12,5%-i tikinti kompleksində, 5,3%-i kənd təsərrüfatında, 4,5%-i nəqliyyatda, 9,9%-i ticarət və pullu xidmət sahələrində, 1,8%-i rabitədə, 17%-i digər sahələrdə istehsal olunmuşdur. Əhalinin hər nəfərinə düşən əlavə dəyər 6 min 264,1 manat təşkil etmişdir. ÜDM istehsalı qeyri-neft sektorunda 7% artıb, neft sektorunda isə 2,9% azalmışdır.

***Sənayenin qeyri-neft sektoru***

Sənaye məhsulu istehsalı 2013-cü illə müqayisədə 0,7% azalaraq 31,9 mlrd. manat olmuş, onun 69,6%-i və ya 22,2 mlrd. manatı mədənçıxarma bölməsində, 24%-i, yaxud 7,6 mlrd. manatı emal bölməsində, 5,7%-i və ya 1.8 mlrd. manatı elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində, 0,7%-i və ya 231,8 mln. manatı su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində istehsal olunmuşdur. Sənayenin neft sektorunda məhsul istehsalı 2,4% azalmış, qeyri-neft sektorunda isə 6,9% artmışdır. Mədənçıxarma bölməsinin məhsullarından 41,9 mln. ton və ya 2,8% az xam neft, 18,7 mlrd. kubmetr, yaxud 4,9% çox əmtəəlik qaz hasil olunmuşdur.

Emal bölməsində qida məhsulları istehsalı 1,4%, içki istehsalı 8,1%, geyim istehsalı 59,9%, toxuculuq sənayesi məhsulları istehsalı 1,9%, kimya sənayesi məhsulları istehsalı 32%, tikinti materialları istehsalı 22,2%, hazır metal məmulatlarının istehsalı 6,2%, metallurgiya sənayesi məhsullarının istehsalı 11%, elektrik avadanlıqları istehsalı 12,1%, avtomobil və qoşquların istehsalı 58,2%, sair nəqliyyat vasitələri istehsalı 3,4 dəfə, zərgərlik, musiqi, idman və tibb avadanlıqları istehsalı 80,9%, maşın və avadanlıqların quraşdırılması və təmiri 41% artmışdır.

***Tikinti-quraşdırma işləri***

İqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17,6 mlrd. manat həcmində vəsait yönəldilmiş, 13,3 mlrd. manatlıq tikinti-quraşdırma işləri görülmüşdür. 2013-cü illə müqayisədə tikinti-quraşdırma işlərinin aparılmasına sərf edilmiş vəsait 11,8% artmışdır. Məhsul istehsalı obyektlərinin inşasının aparılmasına investisiyanın 63,9%-i, yaxud 11,2 mlrd. manat sərf olunmuşdur. Vəsaitin 72,3%-ni və ya 12,7 mlrd. manatını daxili investisiyalar təşkil etmişdir.

2014-cü ildə inşası davam etdirilən və yeni tikilən obyektlər üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin 6 mlrd. 266 mln. manatından istifadə olunmuş, il ərzində ümumi sahəsi 1 mln. 978,3 min kv.metr yaşayış evləri, 29 min 230 şagird yerlik ümumtəhsil məktəbləri, növbədə 251 nəfərin qəbulu üçün nəzərdə tutulmuş ambulator-poliklinika müəssisəsi, 280 çarpayılıq xəstəxana, 1332 yerlik məktəbəqədər təhsil müəssisəsi, 294 yerlik klub və s. onlarla obyekt istifadəyə verilmişdir.

***Ticarət və xidmət***

2014-cü ildə əhaliyə 22 mlrd. manatlıq istehlak malları satılmış və bu sahədə 10% artım olmuşdur, pullu xidmətlərin həcmi isə 7,2% artaraq 7 mlrd. manata çatmışdır. İstehlak bazarından alınmış məhsulların 50,1%-ni ərzaq məhsulları, 49,9%-ni qeyri-ərzaq malları təşkil etmiş, ərzaq məhsullarının satışı 3,9%, qeyri-ərzaq mallarının satışı isə 16,2% artmışdır. İstehlakçıların pərakəndə ticarət şəbəkələrində xərclədikləri vəsaitin 48,4%-i qida məhsulları və içkilərin, 1,7%-i tütün məmulatlarının, 18,7%-i toxuculuq malları, geyim və ayaqqabının, 4,7%-i elektrik malları və mebelin, 0,6%-i kompüterlər, telekommunikasiya avadanlıqları və digər məmulatların, 1,4%-i əczaçılıq və tibb mallarının, 7,1%-i avtomobil yanacaqlarının, 17,4%-i isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur. 2014-cü ildə ölkənin hər sakini tərəfindən ticarət şəbəkələrindən orta hesabla 2336,8 manatlıq və ya 2013-cü illə müqayisədə 222,5 manat çox müxtəlif istehlak malları alınmışdır.

2014-cü il üzrə əlavə dəyər istehsalı




***Əməkhaqqı***

Ölkənin iqtisadi və sosial sahələrində muzdla işləyənlərin orta aylıq əməkhaqqı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2014-cü ilin yanvar-noyabr aylarında 5,4% artaraq 442.1 manat təşkil etmişdir. İqtisadiyyatın ayrı-ayrı sahələrində işləyənlərin orta aylıq əməkhaqqı daha yüksək olmuş və sənayedə 709,5 manat, tikinti kompleksində 626,7 manat, nəqliyyatda 538 manat, informasiya və rabitə sahəsində 733,5 manat təşkil etmişdir.

Əhalinin gəlirləri 2013-cü illə müqayisədə 4,8% artaraq 39,4 mlrd. manata, hər nəfərə düşən məbləği isə 3,5% artaraq 4 min 180,5 manata çatmışdır. Gəlirlərin 68,8%-i son istehlaka, 8,7%-i vergilər, sosial sığorta və könüllü üzvlük haqlarının ödənilməsinə, 20%-i isə əmanətlərin və kapitalın artırılmasına sərf olunmuşdur.

***Büdcə gəlirləri və xərcləri***

Maliyyə Nazirliyinin məlumatına əsasən, 2014-cü ilin yanvar-noyabr ayları ərzində dövlət büdcəsinə 17,2 mlrd. manat daxil olmuş, büdcədən 15,1 mlrd. manat vəsait xərclənmişdir. Büdcə xərclərinin 40,5%-i və ya 6,1 mlrd. manatı iqtisadiyyatın inkişafına, 11,7%-i (1,8 mlrd. manatı) səhiyyə və təhsilə, 11,8%-i (1,8 mlrd. manatı) sosial müdafiə və sosial təminata yönəldilmişdir. Büdcənin gəlirləri ilə xərcləri arasında ümumi daxili məhsulun 3,9%-i qədər və ya 2 mlrd. 72 mln. manatlıq profisit yaranmışdır.

**R.SADIQOV**

# «Kənd təsərrüfatı ili»nin prioritetləri

**Əvvəli 4-cü səhifədə**

Şəmkirdə təməli qoyulmuş özəl pilot aqroparkda kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, qablaşdırılması, logistik xidmətlərin göstərilməsi və hazır malların satış üçün ölkə bazarlarına çıxarılması və ixrac edilməsi zəncirinin təşkili nəzərdə tutulur. Aqrar sahənin perspektiv inkişaf yollarından biri kəndli-fermer təsərrüfatlarının daha iri kənd təsərrüfatı müəssisələri formasında birləşmələrinin təmin olunmasıdır. Bu məqsədlə fermerlərə müxtəlif güzəştlərin verilməsi və iqtisadi stimullaşdırıcı tədbirlərin görülməsi nəzərdə tutulur.

Aqrar sahəyə xarici investorları cəlb etmək üçün müxtəlif stimullaşdırıcı addımlar atılacaq. Dünya Bankı aqropark və yeni aqrar layihələrə sərmayə yatırmaq barədə qərar qəbul edib və Azərbaycan hökuməti ilə imzalanmış «Kənd təsərrüfatında rəqabət qabiliyyətinin gücləndirilməsi» layihəsinə əsasən, ölkəmizdə aqrobiznes-ərzaq emalı texnologiyalarına əsaslanan yeni müəssisələr qurulacaq. Layihə çərçivəsində kənd təsərrüfatı mallarının marketinq şəbəkəsinin yenidən qurulması nəzərdə tutulur. Niderland Krallığı ilə imzalanmış saziş isə aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsini əhatə edir.

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) da Azərbaycanda kənd təsərrüfatı layihələrinə kredit ayıracaq və aqrar sənaye layihələrini maliyyələşdirəcək. Bankın Bakıdakı daimi nümayəndəliyinin rəhbəri Nil Makkeyn bildirib ki, Azərbaycanda aqroparkların yaradılması ilə bağlı müvafiq maliyyə sənədi imzalanacaq.

Qeyd edək ki, aqrar sahənin inkişafında vergi siyasəti mühüm rol oynayır və vergi güzəştləri də məhz kənd təsərrüfatının inkişafına əlavə stimul vermək üçündür. Ötən 13 ildə güzəştlər nəticəsində büdcəyə köçürülməsi nəzərdə tutulan 1 milyard 400 milyon manat vəsait kənd təsərrüfatının inkişafına yönəldilib. Bu cür yanaşma nəticəsində kənd təsərrüfatı məhsullarının həcmi 4,4 dəfə artıb, məhsul istehsalı 1,3 milyard manatdan 5 milyard manata çatıb.

*Aqrar sahə üzrə tətbiq olunan vergi güzəştləri məhz kənd təsərrüfatının inkişafına əlavə stimul üçündür*

2014-cü il yanvarın 1-dən kənd təsərrüfatının 5 il müddətinə mənfəət, əlavə dəyər, sadələşdirilmiş və əmlak vergisindən azad edilməsi bu sahənin perspektiv inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Proqnozlara görə, yaxın 5-6 ildə kənd təsərrüfatında istehsal həcminin 2 dəfə artırılması mümkün olacaq.

**Elbrus CƏFƏRLİ**

# BVF proqnozlarını açıqlayıb

## *Azərbaycanda ÜDM artımı 2,2% səviyyəsində proqnozlaşdırılıb*

Beynəlxalq Valyuta Fondu (BVF) dünya ölkələrinin 2015-ci ildə dünya iqtisadiyyatının inkişaf vəziyyəti barədə proqnozlarını açıqlayıb. Qurum cari ildə ümumdünya artım tempinin 1,2-2 faiz civarında olacağını, Azərbaycanda isə ümumi daxili məhsulun (ÜDM) artımının 2,2% səviyyəsində proqnozlaşdırıldığını bəyan edib. Sənəddə 2016-cı ildə Azərbaycanda ÜDM artımının 2,5% səviyyəsində olacağı bildirilir. İqtisadi artımda əsas ağırlığın qeyri-neft sektorunun üzərinə düşəcəyi, 2015-ci ildə qeyri-neft sektorunda ÜDM-in 4,1%, 2016-cı ildə 4% artacağı qeyd edilir. Gözləntilərə görə, 2015-2016-cı illərdə Azərbaycanda ÜDM-in nominal həcmi müvafiq olaraq 78 mlrd. və 82,6 mlrd. manat təşkil edəcək. 2015-ci ildə Azərbaycanda inflyasiya 2% , 2016-cı ildə isə 3% səviyyəsində proqnozlaşdırılır.

*Azərbaycanda rəqabətqabiliyyətli bazarların inkişaf etdirilməsi üçün dövlət və özəl sektorun iştirakı ilə birgə layihə həyata keçirilməsi planlaşdırılır*

Azərbaycan iqtisadiyyatının ortamüddətli artımı üçün neft gəlirləri mühüm rol oynamayacaq. İqtisadiyyatın digər təbii ehtiyatların yüksək artımı hesabına inkişaf etdirilməsi üçün ölkədə uzunmüddətli maliyyə sabitliyi mühüm əhəmiyyət kəsb edir. Fondun tövsiyəsinə görə, yanacaq ehtiyatlarının iqtisadiyyatın diversifikasiyası üçün yönləndirilməsi ortamüddətli artım potensialını gücləndirə bilər. Hökumətin qeyri-neft bölmələrinə maliyyə dəstəyinin genişləndirməsi, kənd təsərrüfatı sektorunda vergi güzəştlərinin tətbiqinin yenidən uzadılması, biznesin idarə olunmasında müasir texnologiyalardan istifadə iqtisadi artıma təkan verəcək amillərdən hesab olunur.

Proqnozlara əsasən, yaxın 2 il ərzində manatın məzənnəsinin aparıcı xarici valyutalarla nisbətdə möhkəmlənməsinin davam etməsi, inflyasiyanın birrəqməli həddə qorunub saxlanması, əhalinin pul gəlirlərinin qiymət indeksinə nisbətən artımının gözlənməsi sosial göstəricilərin də yaxşılaşmasına təsir göstərəcək.

Yeri gəlmişkən, BVF Azərbaycanda özəl sektorun inkişafına dəstək məqsədilə yeni strategiya hazırlayacaq. Əməkdaşlığın əsas hədəfləri azad biznesə dəstək vermək, özəl bölməyə və sahibkarlığa yardım göstərməkdir. Qarşıdakı dövrdə özəl sektora, kiçik və orta sahibkarlığa maliyyə yardımı mexanizminin təkmilləşdirilməsi, bankların və kredit təşkilatlarının maliyyələşmədə aktiv iştirakının artırılması məqsədilə maliyyə resursları potensialının gücləndirilməsi və digər sahələrdə əməkdaşlıq nəzərdə tutulur. Azərbaycanda rəqabətqabiliyyətli bazarların inkişaf etdirilməsi üçün dövlət və özəl sektorun iştirakı ilə birgə layihə həyata keçirilməsi planlaşdırılır. Əməkdaşlığın digər prioritetləri sahibkarlıq sahəsinə inzibati maneələrin aradan qaldırılması, şəffaflığın artırılması, biznesin başlanması, lisenziyalaşdırma, icazələr və digər mülki islahatların həyata keçirilməsində texniki yardım göstərilməsi olacaq. Sahibkarlıq subyektlərinin qeydiyyatı sisteminin daha da təkmilləşdirilməsi, müəssisələr arasında sorğular yolu ilə biznesin qeydiyyatı sahəsində islahatların qiymətləndirilməsi, iqtisadi diversifikasiya və özəl sektorun inkişafı sahələrinə dəstək verilməsi planlaşdırılır.

**Elbrus CƏFƏRLİ**

# Əmək hüquqları təkmilləşdirilir

*Ötən il ölkədə əmək hüquqlarının təkmilləşdirilməsi sahəsində həyata keçirilən tədbirlər içərisində Əmək Məcəlləsinə olunan dəyişiklikləri xüsusi qeyd etmək lazımdır.*

Bu dəyişikliklər nəticəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən mükəmməl proqram təminatı əsasında əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemi hazırlanaraq «Elektron hökumət» portalı üzərindən istifadəyə verilib. Sistem əmək münasibətlərinin elektron müstəvidə şəffaflaşdırılmasında, işçi hüquqlarının təminatına dövlət nəzarətinin gücləndirilməsində, qeyri-leqal məşğulluq hallarının qarşısının alınmasında, büdcəyə sosial sığorta və vergi daxilolmalarının artırılmasında öz faydalarını verir. Hazırda əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması üzrə elektron xidmət ən çox istifadə olunanlar sırasındadır.




Ötən il ƏƏSMN yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (DƏMX) tərəfindən əmək qanunvericiliyinə əməl olunması sahəsində bir sıra tədbirlər həyata keçirilib. Bu işlər işçilərlə əmək münasibətlərinin əmək müqaviləsi əsasında tənzimlənməsi, əməyin ödənilməsi, məzuniyyət və istirahət hüququnun təmin edilməsi, əməyin mühafizəsi, texniki təhlükəsizlik, əmək şəraiti, əmək xəsarəti ilə əlaqədar ödənclərin ödənilməsi, işçilərin və iş yerlərinin attestasiyası, iş prosesində əmək və əməyin mühafizəsi tələblərinə riayət olunması və s. kimi məsələləri əhatə edir. Dövlət nəzarəti tədbirlərinin gücləndirilməsində məqsəd əmək qanunvericiliyindən irəli gələn tələblərin yerinə yetirilməsi, o cümlədən işçi hüquqlarının təminatı ilə əlaqədar işəgötürənlərin məsuliyyətinin artırılmasıdır. Dövlət xidmətinin ötən il həyata keçirdiyi nəzarət tədbirləri, habelə ərizə və müraciətlərin araşdırılması zamanı işəgötürənlər tərəfindən 20 min 417 halda əmək qanunvericiliyinin tələblərinin pozulması faktı aşkar edilib. Aparılan təhlillər zamanı hüquq pozuntularının daha çox əmək münasibətlərinin rəsmiləşdirilməməsi, əmək müqavilələrinin şərtlərinin yerinə yetirilməməsi, əməyin mühafizəsində, əməkhaqqının hesablanması və ya ödənilməsində nöqsanlar, texniki təhlükəsizlik qaydalarına əməl edilməməsi və s. ilə bağlı olduğu müəyyən edilib.

Əmək qanunvericiliyinin tələblərinin pozulması hallarına yol vermiş işəgötürənlərə İnzibati Xətalar Məcəlləsinin müvafiq bəndləri əsasında cərimələr tətbiq olunub. Cərimələrin 44,6%-i, yəni 1915347 manatı dövlət büdcəsinə ödənilib ki, bu da 2013-cü illə müqayisədə 24 dəfə çoxdur.

Dövlət nəzarəti zamanı əmək haqları və digər sosial xarakterli ödənişlərin işçilərə əmək qanunvericiliyinin tələblərinə uyğun şəkildə ödənilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində işəgötürənlər tərəfindən gecikdirilmiş 527 min 574 manat məbləğində sosial xarakterli ödənişlərin işçilərə ödənilməsi təmin edilib. Bu məbləğin 468 min 434 manatı (88,8%) əmək haqlarından, 33 min 932 manatı (6,4%) zərərə görə ödənclərdən, 25 min 208 manatı (4,8%) isə sosial müavinətlər və kompensasiyalardan ibarət olub. Gecikdirilmiş sosial xarakterli ödənişlərin 81%-i sahibkarlıq subyektlərinə aid olub. Ödənişlərin iqtisadiyyatın sahələri üzrə daha çox emal sənayesi (18,6%) və tikinti sektoruna (22,6%) aid müəssisələrdə gecikdirilməsi müəyyən olunub.

İl ərzində qeyri-qanuni işdən azad edilmiş işçilərin hüquqlarının bərpası istiqamətində də iş aparılıb və əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verilmiş 13 nəfər öz əvvəlki işinə bərpa edilib.

Yeri gəlmişkən qeyd edək ki, DƏMX tərəfindən 2015-ci il üçün nəzərdə tutulan tədbirlərin icrasına başlanılır. Bu tədbirlərdən biri yanvarın 26-dan fevralın 5-dək davam edən «Təhlükəsiz iş ongünlüyü»dür. Məqsəd işçilər üçün sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasına nail olmaq, əməyin mühafizəsi sahəsində mövcud olan nöqsanların aradan qaldırılmasını və istehsalatda bədbəxt hadisələrin qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsini təmin etməkdir. Bu tədbir işəgötürənlərin və işçilərin, ümumən cəmiyyətin diqqətini əməyin təhlükəsizliyi problemlərinin ciddiliyinə yönəldilməsini nəzərdə tutur.

**A.NƏBİYEVA**

beynəlxalq panoram

# Rusiyada daşınmaz əmlak vergisi kadastr dəyərinə tətbiq edilib



Ölkədə daşınmaz əmlak sahibləri 2016-cı ildən vergini yeni qaydalarla ödəməli olacaqlar: əhalinin əmlak vergisinin kadastr qiyməti nəzərə alınmaqla hesablanmasını nəzərdə tutan qanun qüvvəyə minib.

Dəyişikliyə görə, vergi məbləği daşınmaz əmlakın bazar kadastr dəyərinə yaxın məbləğ üzrə hesablanacaq. Bu halda kadastr dəyəri mənzilin sahəsi, inşa olunma ili, həmçinin daşınmaz əmlakın yerləşməsi, seqmenti və s. ilə müəyyən edilir.

Qiyməti 10 milyon rubldan az olan mənzilin ümumi kadastr dəyərinin vergi dərəcəsi məbləğin 0,1%-nə, dəyəri 10 milyondan 20 milyon rubladək mənzillər üçün 0,15%-nə çatacaq.

Dəyəri 20-50 milyon rubl civarında dəyişən daşınmaz əmlak obyektləri üçün vergi dərəcəsi 0,2%, 50-300 milyon rubl dəyərində olanlar üçün isə 0,3% təşkil edəcək.

300 milyon rubldan baha olan əmlak üçün 2% həcmində dərəcə nəzərdə tutulur.

# Latviyada mikromüəssisələrin vergi dərəcəsi 11%-dək yüksəlir

*2015-ci ildən illik dövriyyəsi 7000 avrodan çox olan mikromüəssisələrin vergi dərəcəsi 9%-dən 11%-dək artırılıb.*

Seym hələ 2013-cü ildə illik dövriyyəsi 7000 avrodan az olan mikromüəssisələrdən tutulan verginin dərəcəsinin 2017-ci ilədək 15%-ə çatdırılmasını nəzərdə tutan qanun layihəsini qəbul etmişdi.

Sahibkarlar bu yeniliyi kəskin tənqid ediblər. İqtisadiyyat naziri də hesab edir ki, bu dəyişiklik vergi ödəyicilərinin kölgə iqtisadiyyatına qayıtmağına səbəb ola bilər.

Seym təsərrüfat fəaliyyətinin ilk üç ilində bütün mikromüəssisələrə 9% vergi dərəcəsinin saxlanılması barədə İqtisadiyyat Nazirliyinin təklifini müzakirə edəcək.

# Gürcüstanda aksiz dərəcəsi qaldırılıb

*Yanvarın 1-dən Gürcüstanda tütün məhsullarının aksiz vergisi, o cümlədən filtrli siqaretin 20 ədədinə 20%-dək (0,9 lari), filtrsiz siqaretin 20 ədədinə 25%-dək (0,25 lari) artırılıb.*

Tütün məmulatları üzrə aksizlərin həm çəkisi və sayı, həm də pərakəndə satış qiymətləri əsasında müəyyənləşdirilməsi üçün iyulun 1-dən filtrli və filtrsiz siqaretlərə vergi «qarışıq sistemlə» hesablanacaq.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, bu il martın 1-dən pivə üçün aksiz dərəcəsi 50% (0,4 laridən 0,6) lariyədək artacaq.

Etil spirtinin və alkoqollu içkilərin, o cümlədən hazırda 1 litri 2,5 laridən 5 lariyədək olan arağın, likörün, cinin, romun və viskinin aksiz dərəcələri iki dəfə artacaq.

# Aİ rəqəmsal məhsullar üçün vergitutma qaydalarını dəyişib

Yanvarın 1-dən Avropa İttifaqında rəqəmsal məhsulların yeni vergitutma qaydaları qüvvəyə minib. Bundan sonra satılan rəqəmsal məhsullar, o cümlədən mobil telefonlar üçün proqram təminatları, elektron kitablar, onlayn-yayım və s. alınarkən ƏDV online mağazanın yerləşdiyi ölkənin deyil, alıcının ölkəsinin vergi dərəcəsi ilə hesablanacaq.

Bununla Avropa İttifaqı biznesini vergi dərəcəsi aşağı olan ölkələrdə (məsələn, İrlandiya və Lüksemburqda) qeydiyyatdan keçirmək yolu ilə vergidən yayınan transmilli korporasiyalara («Google», «Amazon», «Nook», «Kobo» və s.) təsir göstərməyə çalışır.

Rəqəmsal məmulatların ƏDV-si Lüksemburqdan yüksək olan ölkələrin alıcıları üçün Avropa İttifaqının bu siyasəti, çox güman ki, qiymətlərin bahalaşması ilə nəticələnəcək.

Məsələn, Lüksemburqda qeydiyyatdan keçmiş «Amazon» şirkəti elektron kitabları 3% ƏDV ilə satır. Böyük Britaniyada ƏDV dərəcəsi 20%, Polşada 23% olduğundan, bu tədbir kitabların qiymətinə təsir göstərəcək.



Xarici ölkələrin təcrübəsi

# Niderland Krallığı: *mənfəət vergisi*

Niderlandda mənfəət vergi sistemi tamamilə klassik sistemə əsaslanır. Yəni müəssisənin mənfəəti mənfəət vergisinə cəlb olunduqdan sonra xalis mənfəət səhmdarlara dividend şəklində bölüşdürüldükdə bir daha vergiyə cəlb olunur. Lakin iştirak azadolması hallarında ikiqat vergitutma istisna edilir.

Ölkədə mənfəət vergisinin ödəyiciləri «Mənfəət vergisi haqqında» Qanunda göstərilmişdir və aşağıdakıları əhatə edir:

- dövlət (NV) və özəl şirkətlər (BV);
- açıq-məhdud ortaqlıqlar (məhdud ortaqlıqların üzvləri bütün digər ortaqlar və əsas ortaqların razılığı olmadan da ortaqlıq əmlakı üzərində sərəncam vermək hüququna malikdirlər);
- kooperativ prinsipə əsaslanan kooperativ cəmiyyətlər və digər assosiasiyalar;
- qarşılıqlılıq prinsipi əsasında fəaliyyət göstərən sığorta şirkətləri və ya digər kredit təşkilatları;
- hüquqi şəxs olan və olmayan assosiasiyalar, həmçinin sahibkarlıqla məşğul olduğu hallarda, fondlar;
- birgə hesaba malik fondlar;
- tikinti korporasiyaları;
- dövlətə məxsus bir sıra müəssisələr.

Niderlandda ümumi ortaqlıqlar mənfəət vergisinə cəlb edilmir, bu cür qurumların ortaqlarından öz mənfəət paylarına görə ayrıca gəlir vergisi tutulur.

Niderland qanunları əsasında təsis olunan müəssisələr mənfəət vergisi və ödəmə mənbəyində tutulan vergi məqsədləri üçün ölkənin rezidenti hesab olunurlar. Müəssisənin xarici ölkə qanunu əsasında təsis olunduğu halda, rezidentlik məqsədləri üçün müəssisənin effektiv idarə olunduğu, baş ofisin yerləşdiyi və əsas səhmdarların görüşünün keçirildiyi yer əsas götürülür.

Rezident müəssisələr bütün dünya üzrə əldə etdikləri gəlirlərdən mənfəət vergisi ödəyirlər. Mənfəət vergisinə cəlb olunan sahibkarlıq gəlirləri dedikdə isə müəssisənin əldə etdiyi bütün qazanclar başa düşülür. Müəssisələr, fəaliyyət növündən asılı olmayaraq, bütün əsas vəsaitlərindən istifadə etmiş hesab olunur və müəssisənin vergi tutulan gəlirlərinə investisiya və kapital gəlirləri də daxildir.

Niderland qanunvericiliyinə əsasən, ən əhəmiyyətli azadolmalara müəssisələrin iştirak azadolması rejimi altına düşən dividend və kapital gəlirləri daxildir.

Sahibkarlıq fəaliyyəti ilə birbaşa və sıx bağlı olan istənilən xərc gəlirdən çıxılır. Müəssisənin təsisçisi və ya səhmdar tərəfindən verilmiş «bona fide» kreditləri üzrə faizlər də gəlirdən çıxılır. Royalti və xidmət haqları isə prinsipcə gəlirdən çıxılır. Lakin bu cür xərclər mənfəətin bölüşdürülməsinin gizlədilməsi və ya «uzadılmış əl» prinsipindən kənar həyata keçirilərsə, gəlirdən çıxıla bilməz.

2011-ci il noyabrın 15-dən Niderland müəssisələrinin əldə etdiyi holdinqlər və mövcud səhmlərin artırılması üzrə faizlərin gəlirdən çıxılmasına aşağıdakı şərtlərlə yol verilmir. Məhdudiyyətlər bunlara şamil edilir:



a) faiz məbləği 1 mln. avrodan artıqdırsa;

b) ödənilən faiz əldə olunan müəssisənin mənfəətindən azdırsa.

Xüsusi qaydalar çərçivəsində ödənilən kredit faizinin məbləği əldə olunan müəssisənin ümumi dəyərinin 60%-dən çox deyilsə, kredit faiz məbləğinin gəlirdən tam çıxılmasına icazə verilir. Lakin məhdudiyyətsiz şəkildə faizin gəlirdən çıxılmasının davam etdirilməsi üçün müəssisə digər müəssisənin əldəetmə ilindən sonrakı 7 il ərzində alınma dəyərinin 25% dəyəri qaladək ildə ən azı 5% həcmində məbləğ qaytarmalıdır. Bu şərtlərlə faizlər tam şəkildə gəlirdən çıxıla bilər.

Rezident və qeyri-rezident müəssisələrə münasibətdə iştirak azadolması şəklində qiymətləndirilən əldəetmələr və özgəninkiləşmələrə çəkilən xərclər gəlirdən çıxılmır.

2013-cü ildən digər müəssisələrin səhmlərini almaq üçün ödənilən faizlərin gəlirdən çıxılması məhdudlaşdırılmışdır. Ödənilən faizin illik 750 min avrodan artıq hissəsi gəlirdən çıxılmır.

Direktor ödənişləri məbləği səhmdarlara mənfəətin gizli bölüşdürülməsi şəklində verilmirsə, tam şəkildə gəlirdən çıxılır. Müşahidə şurasının üzvlərinə ödənilən ödənişlər də tam şəkildə gəlirdən çıxılır. Məhdudiyyət yalnız müşahidə şurası üzvü olub fərdi şəkildə müəssisədə ən azı 5%-lik səhmə malik şəxslərə aid ödəmələrə tətbiq olunur.

Dividend ödəmələri, gizli ödəmələr də daxil olmaqla, gəlirdən çıxılmır. Müəssisənin yaratdığı hər hansı fonda təsisçilərin, səhmdarların və digər şəxslərin ödədikləri məbləğ gəlirdən çıxılmır. Müəssisənin kreditləri üzrə faiz xərcləri və ya məzənnə fərqləri üzrə yaranmış zərər kredit müqaviləsinin sırf sahibkarlıq məqsədilə bağlandığı sübut oluna bilmirsə, gəlirdən çıxılmır. İkiqat vergitutmanın aradan qaldırılması haqqında sazişin müddəalarına əsasən, müəssisənin ödədiyi faiz hənsi şəxs tərəfindən vergiyə cəlb olunmursa, gəlirdən çıxılmasına yol verilmir.

Biznes əyləncələri məqsədilə yaxtalar və digər gəmilərə çəkilən xərclər, eləcə də mənfəət vergisi, əksər maliyyə cərimələri və cəzaları gəlirdən çıxılmır.

Həm sahibkarlıq, həm də fərdi xarakterli xərclər (yemək, təmsilçilik xərcləri) isə müəyyən limit çərçivəsində gəlirdən çıxılır.

Niderlandda mənfəət verginin dərəcəsi 200 min avroyadək olan mənfəətdən 20%, mənfəətin bundan artıq olan hissəsindən 25% dərəcə ilə tutulur. Bu dərəcələr kapital gəlirlərinə də aiddir.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Mövsümi meyvə; 2.Braziliyada yaranmış və ötən əsrin 80-90-cı illərində populyarlaşmış musiqi janrı və rəqsi; 3.İki dayaq arasında parça, ip və ya tordan hazırlanaraq asılmış, yatmaq və istirahət üçün istifadə edilən sadə yataq yeri; 4.Venesiyada tarixi məhəllə; 5.Fransa riyaziyyatçısı və fiziki; 6.İtaliya rəssamı. Renessans mədəniyyətinin görkəmli nümayəndələrindən biri; 9.Hər biri müstəqil olmaq şərtilə ikilikdə oxunan və ya çalınan musiqi əsəri; 13.Azərbaycan milli rəqsi; 15.Fransa fiziki; 16.Məişət texnikası markası; 17.Hər hansı iclas və ya yığıncaqda qəbul olunan qərarların legitimliyi üçün iştirakçıların vacib sayı; 18.Aylardan biri; 20.Hindistanda şəhər; 21.2020-ci ildə Yay Olimpiya Oyunlarının keçiriləcəyi şəhər. **Soldan sağa:** 1.Ehtiyacı olanlara kömək məqsədilə fəaliyyət göstərən insan; 5.Fransada çay; 7.Başqırdıstanda dağ massivi; 8.Dörd ölkədən keçən çay; 10.Zürafələr fəsiləsinə aid heyvan növü; 11.Avtomobil şüşələrinin şəffaflığını (işıqburaxma qabiliyyəti) ölçən cihaz; 12.Azərbaycan milli rəqsi; 14.İdarə, müəssisə və s. qurumlara aid dördkünc möhür; 19.Dövlətin əsas ərazisindən ayrı və digər ölkələrlə əhatə olunan qeyri-suveren bölgə; 21.Artist və idmançıların qastrol səfəri; 22.Meşənin ortasında çox da iri olmayan ağacsız açıq sahə; 23.Meyvə şəkəri; 24.Avropada çay; 25.Biletlərə, bank çeklərinə və s. yoxlama işarəsi vuran alət.



Venesiyada tarixi məhəllə



Avtomobil şüşələrinin işıqburaxma qabiliyyətini ölçən cihaz

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Küsnət; 2.Turbaza; 3.Rübai; 4.Vikont; 5.Batal; 6.Landau *(Lev)*; 9.Aval; 13.Taxt; 15.Apollon; 16.Amara; 17.Altuna; 18.Ekarte; 20.Disko; 21.Kanim. **Soldan sağa:** 1.Kotirovka; 5.Bal; 7.Sarabski *(Hüseynqulu)*; 8.Etan; 10.Əhali; 11.Novella; 12.Yalta; 14.Almaz *(Əsgərova)*; 19.Mədaxil; 21.Kiosk; 22.Risk; 23.«Durnalar»; 24.Suo; 25.Blanmanje.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

# Yeniyetmə güləşçilərimiz beynəlxalq turnirdə...

*Yanvarın 29-30-da İran İslam Respublikasının Məşhəd şəhərində yeniyetmələr arasında «Yadigar İmam Kuboku» beynəlxalq turniri keçiriləcək. Turnirdə sərbəst və yunan-Roma güləşi üzrə yığma komandalarımız iştirak edəcək.*

Azərbaycan Güləş Federasiyasından (AGF) bildiriblər ki, məşqçilər İslam Cəfərov və Fuad Əliyevin rəhbərliyi altında turnirə yollanacaq yunan-Roma yığmasının heyətinə 10 güləşçi daxil edilib. Turnirdə ölkəmizi Mirsirac Həsənli (42 kq), Ramal Əhədli (46 kq), Nurağa Yusifli (50 kq), Xancavad Məcidzadə (54 kq), Məhəmmədəli Həsənli (58 kq), Ceyhun Nəsirov (63 kq), Cavanşir Qasımov (69 kq), Nəzərşah Fətullayev (76 kq), Yaşar Zamanov (85 kq) və Rauf Məmmədli (100 kq) təmsil edəcəklər.

Sərbəst güləşçilərin yarışında isə Şahin Muxtarov (42 kq), İntiqam Vəlizadə (46 kq), Əliabbas Rzazadə (50 kq), Kənan Ağamalıyev (54 kq), Fazil Həsənov, Füzuli Hüseynov (hər ikisi 58 kq), Orxan Abbasov (63 kq), İsmayıl Abdullayev (69 kq), Ravil Babazadə və Əhliman Quliyev (hər ikisi 76 kq) mübarizə aparacaqlar. Yığma komandaya böyük məşqçi Nazim Əlicanov və məşqçi Vahid Məmmədov rəhbərlik edəcəklər.

Turnirin proqramına əsasən, yanvarın 29-da sərbəst güləş üzrə 42, 50, 58, 69 və 85 kq, yunan-Roma güləşi üzrə 46, 54, 63, 76 və 100 kq çəki dərəcələrində qaliblər müəyyənləşəcək. Sərbəst güləş üzrə 46, 54, 63, 76 və 100 kq, yunan-Roma güləşi üzrə 42, 50, 58, 69 və 85 kq çəkidə idmançılar isə yanvarın 30-da mübarizə aparacaqlar.

Azərbaycanlı beynəlxalq dərəcəli hakim Babək Allahverdiyev görüşlərin idarə edilməsində iştirak edəcək.



# Patrik Hikki: «Bakı-2015» idman tarixində yeni maraqlı səhifə olacaq»

*«2019-cu ildəki Avropa Oyunlarının keçirilməsi ilə bağlı qərar bu ilin may ayına qədər elan olunacaq. Seçilmiş şəhər «Bakı-2015» Təşkilat Komitəsi ilə əhatəli şəkildə təcrübə mübadiləsi aparacaq. Bu, çox dəyərlidir, çünki Bakıda ən yaxşı praktiki modellər hazırlanıb». Bu sözləri Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki yanvarın 22-də Davosda «Bakı-2015» ilk Avropa Oyunlarının təqdimatında çıxışı zamanı deyib.*

P.Hikki vurğulayıb ki, adətən Olimpiya Oyunlarının keçirilməsi məqsədilə şəhərə yeddi il müddət verilir, «Bakı-2015» yarışması üçün isə cəmi 30 ay vaxt verildi. Buna baxmayaraq, Azərbaycan bu qısa müddətdən səmərəli istifadə edib və şübhə etmirəm ki, ilk Avropa Oyunları yaddaqalan tədbir olacaq. Komitə prezidentinin sözlərinə görə, Bakıda keçiriləcək Oyunlar Avropa qitəsinin ilk çoxnövlü idman yarışması olacaq və yarışlara Avropanın 50 ölkəsindən 6 mindən çox atlet qatılacaq.

Onun bildirdiyinə görə, Bakıda olduqca gözəl ilk Avropa Oyunları keçiriləcək: «Azərbaycan qədim tarixə malik, yüksək templə inkişaf edən, zəngin təbii sərvətləri olan, onları lazımi şəkildə idarə edən ölkədir. Azərbaycan cəmi 23 il ərzində görünməmiş tərəqqi əldə edib. Avropa Olimpiya ailəsinin bir hissəsi olmaq bu inkişafın sürətləndirilməsinə zəmin yaradıb. Zati-aliləri Prezident İlham Əliyevin mövqeyi və uzaqgörənliyi, xüsusən də onun Azərbaycan Milli Olimpiya Komitəsinin rəhbəri kimi oynadığı rol sayəsində dünyanın bu guşəsində inkişaf təmin edilib.

İdman Azərbaycan cəmiyyətində xüsusi yer tutur. «Bakı-2015» idman tarixində yeni maraqlı səhifə olacaq. Şübhə etmirəm ki, «Bakı-2015» Oyunları Azərbaycanın parlaq idman gələcəyinə aparan yoldur. Bu, həmçinin, Avropa üçün dörd ildən sonra növbəti oyunlara bələdçi hadisədir və Avropa Oyunları konsepsiyasının ən gözəl nümunəsi ola bilər».

# Azərbaycanın üç hakimi yüksək kateqoriyaya layiq görülüb

Dünya Güləş Birliyi (DGB) hakimlərlə bağlı qərarını açıqlayıb. Belə ki, ötən il keçirilən yarışlarda və hakimlik imtahanlarında göstərdiyi nəticələrə əsasən, 2015-ci il üçün hakimlik dərəcələri təyin olunub.

Azərbaycan Güləş Federasiyasından bildiriblər ki, DGB-nin siyahısında hakimlərimizdən bir neçəsinin dərəcəsində dəyişiklik baş verib. Yüksək dərəcə alan ədalət təmsilçiləri arasında üç hakimimiz var.

DGB-də davam edən islahatlar nəticəsində Olimpiya kateqoriyası «S» ilə əvəzlənib. Bu siyahıda ölkəmizi Hicran Şərifov və İntiqam Alıyev təmsil edirlər. H.Şərifov əvvəl də ən yüksək kateqoriyaya sahib idi və iki dəfə Olimpiya Oyunlarında iştirak edib. Gənc hakimimiz İntiqam Alıyev isə ötən il Daşkənddə keçirilən dünya çempionatından sonra bir pillə yüksəlib.

DGB-nin imtahanından uğurla keçən digər hakimimiz isə Asif Şirəliyevdir. O, ötən ilin iyununda Polşada keçirilmiş gənclərin Avropa çempionatında sınaqdan uğurlu çıxıb və birinci dərəcəyə yüksəlib.

Yeni siyahıda Hüseynağa Əhmədovun statusu bir pillə aşağı enib. Milli dərəcəli hakim Elgün Məmmədov isə üçüncü dərəcə hakimlik adı alıb.

mozaika

## ABŞ hərbçiləri UNO arxivini açdılar

maraqlı



*ABŞ-ın Hərbi-Hava Qüvvələri (United States Air Force, USAF) uçan naməlum obyektlərlə (UNO) bağlı arxivinin bir qismini açıq elan edib.*

Maraqlananların internetdə tanış ola biləcəkləri fayllar ABŞ HHQ-nin 1947-1969-cı illərdə UNO-larla bağlı apardığı qeydlər və hazırladığı hesabatlardır.

Həmin araşdırmalar «Project Blue Book» adı ilə 1970-ci ilədək aparılıb.

«Tam məxfi» qrifindən çıxarılmış sənədlərdə təxminən 700 fakt «sonadək aydın olmayan hadisə» kimi dəyərləndirilir. Bu isə sənədlərdəki faktların təxminən 5,5%-ni təşkil edir.

Amerikalı hərbçilər UNO-larla bağlı 12618 müşahidənin sonuclarını hesabatda əks etdiriblər.

## Fərdi kompüter alanların sayı azalır

araşdırma

*«International Data Corporation» (IDC) tədqiqat şirkəti tərəfindən müntəzəm tərtib edilən «Worldwide Quarterly PC Tracker» hesabatına əsasən, 2014-cü ilin oktyabr-dekabrında istehsalçılar dünyada 80,8 milyon fərdi kompüter (FK) satıblar ki, bu da ötən illə müqayisədə 2,4% azdır. Ekspertlər 4,8% səviyyəsində eniş proqnozlaşdırıblar.*

Artıq dalbadal üçüncü ildir ki, FK-nın satışı azalır. 2014-cü ildə kompüterlərin tədarük həcmi illik hesablama üzrə 2,1% azalaraq 308,6 milyon təşkil edib.

Analitiklər bildiriblər ki, ümumiyyətlə, ABŞ və Avropada kompüterlərə tələbat başqa bazarlarla müqayisədə daha yüksəkdir, ancaq bu iki inkişaf etmiş regionda artım tempinin ləngiməsi müşahidə olunur. Asiya-Sakit okean regionu (Yaponiya istisnadır) əvvəlki kimi bəzi dövlət layihələri və istehlakçı tələbatının yaxşılaşması sayəsində möhkəmlənir.

Ən böyük FK istehsalçıları reytinqində «HP»nin sıçrayışına diqqət yetirmək lazımdır. 2014-cü ilin dördüncü rübündə tədarükünü 15% artırmış bu şirkət bazar payının 16,7-dən 19,7%-dək artımına nail olub. Nəticədə «HP» lidərə - «Lenovo» şirkətinə çox yaxınlaşıb. Xatırladaq ki, «Lenovo» şirkəti ötən rüb kompüter buraxılışını 4,9%, bazar payını isə 19,9%-dək artırıb.

13,5% göstəriciyə malik «Dell» şirkəti siyahıda üçüncü pilləni tutur. «Acer» (7,7%) və «Apple» (7,1%) şirkətləri müvafiq olaraq dördüncü və beşinci pillələri tutublar.




sağlam həyat tərzi

## Hansı vərdişlər ömrü qısaldır və ya uzadır?

*Alimlər bu suala aydınlıq gətirmək məqsədilə araşdırmalar aparıblar və maraqlı nəticələrə gəliblər.*



Məlum olub ki, yaxın adamlarla, tanışlarla görüş yerinə, eləcə də işə və məktəbə gecikənlər, tıxaca düşənlər öz sağlamlıqlarına ağır zərbə vururlar. Təsəvvür edin ki, siz uşağınızı məktəbə aparanda, yaxud işə yollananda gecikirsiniz. Özünüzü necə hiss edəcəksiniz? İstər-istəməz narahat olmağa başlayacaqsınız və əsəbiləşəcəksiniz. Bütün bunlar isə stress deməkdir. Britaniyalı alimlərin fikrincə, bir yerə daim gecikənlər ömürlərini minimum üç il azaldırlar. Nəticə budur ki, dəqiqlik ömrü uzatmaq üçün ən yaxşı vasitədir.

Alimlər hesab edirlər ki, faydalı vərdişlərə başlamaq heç vaxt gec deyil. Gün ərzində 25 dəqiqə gəzinti, velosiped sürmək və ya üzgüçülüklə məşğul olmaq xəstəxanaya düşmək ehtimalını 50 faiz azaldır.

Cənubi Kaliforniya Universitetinin (ABŞ) tədqiqatçıları isə zehni əməklə məşğul olan 55 yaşdan yuxarı insanların iş qabiliyyətini və yaddaşını öyrəniblər. Aşkar edilib ki, gündəlik təmiz havada gəzənlərin beyin funksionallığı gənclərdə olduğu kimidir.

## 3D printer möcüzəsi

texnologiya

*3D printerlə aviasiya mühərrikinin hissələrinə qədər, demək olar ki, hər şeyi çap və yaxud istehsal etmək olar. Burada söhbət artıq printer vasitəsilə, məsələn, avtomobil istehsal etməkdən gedir.*



ABŞ-ın «Local Motors» şirkəti Detroyt şəhərində keçirilən beynəlxalq avtosalonda 3D printer vasitəsilə hazırlanmış avtomobilin istehsalı barədə məlumat verib. Çəkisi 800 kiloqram olan avtomobilin istehsalı üçün hazırda 44 saat vaxt lazım gəlir. Şirkət ilin axırına qədər bu zamanı 20 saat azaldaraq 24 saata, növbəti mərhələdə isə daha iki dəfə qısaldaraq 12 saata endirməyi planlaşdırır.

Saatda 40 kilometr sürətlə hərəkət edən ikinəfərlik avtomobil bütünlüklə printerdə çap olunub və 212 laydan ibarətdir.

Avtomobil qaraja qoyulmadan, ən sərt iqlim şəraitində, açıq havada saxlanılsa, istifadə müddəti 5-6 il təşkil edəcək. Örtülü məkanda isə təbii ki, bu müddət bir neçə dəfə artacaq.

«Strati» adlandırılan avtomobilin 15 min avrodan bir qədər baha olacağı gözlənilir.

**Müdriklər deyib ki...**

***«Bir daş bir qızıl piyaləni sındırar. Ancaq bununla nə daşın qiyməti artar, nə də qızılın qiyməti əskilər».***

*Sədi Şirazi (1210-1291)*

